Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

62-ci cild

23 fevral 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XV SESSİYASI İCLASININ

# PROTOKOLU № 160

*Milli Məclisin iclas salonu.*
*23 fevral 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 90 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
|---|---|
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Fikrət Məmmədov**, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimliyinə namizəd.

**Vilayət Zahirov**, Azərbaycan Respublikası ədliyyə nazirinin müavini.

**Rəhman Məmmədov**, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi.

**Səfa Cəfərov**, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin baş məsləhətçisi.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Fikrət Fərrux oğlu Məmmədovun Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında.

2. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2023-cü ildə fəaliyyəti haqqında məruzəsi.

3. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik

edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

9. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev, Elman Nəsirov, Musa Qasımlı, Bəhruz Məhərrəmov, Elşad Mirbəşir oğlu, Sahib Alıyev, Vahid Əhmədov, Aydın Mirzəzadə, Vüqar Bayramov, Zahid Oruc

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**1. Fikrət Fərrux oğlu Məmmədovun Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Qüdrət Həsənquliyev, Fikrət Məmmədov

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**2. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2023-cü ildə fəaliyyəti haqqında məruzəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vilayət Zahirov, Siyavuş Novruzov, Fazil Mustafa, Vahid Əhmədov, Əli Məsimli, Vüqar Bayramov

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 80 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 1 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**3. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Bəhruz Məhərrəmov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Bəxtiyar Əliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verdi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**5. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**6. “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**7. “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**8. “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Tahir Rzayev, Əli Hüseynli, Əli Məsimli, Razi Nurullayev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Razi Nurullayev, Məlahət İbrahimqızı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**10. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Qüdrət Həsənquliyev, Məlahət İbrahimqızı, Erkin Qədirli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**11. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Zahid Oruc, Fəzail Ağamalı, Etibar Əliyev, Tahir Kərimli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*23 fevral 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
|---|---|
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, biz iclasa başlaya bilərik.

Xahiş edirəm, indi isə gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, həmişə olduğu kimi, gündəmdə, ya da gündəlikdə olan məsələlərlə bağlı kim çıxış eləmək istəyirsə, xahiş edirəm, yazılın. 30 dəqiqəniz var. 10 nəfər çıxış eləyə biləcək. Buyurun. Sonuncu çıxış Zahid Orucun çıxışı olacaq. Elşən Musayev. Buyurun.

**E.Musayev**. Təşəkkür edirəm, xanım sədr. Hər kəsi salamlayıram. Dünən biz gecə saatlarına qədər "Qarabağ" havasında olmuşuq. Bu möhtəşəm klubumuzun zəfərinə köklənmişik və hətta səhərimizi belə bu sevinc emosiyası ilə açmışıq. Oyundan sonra klubun baş məşqçisi, mənim təmsil olunduğum Zaqatalanın yetirməsi çox hörmətli Qurban Qurbanov belə bir ifadə işlətdi: "Biz bu ruhu, bu döyüşkənliyi, bu əzmi, meydanda xarakter qoymağı Ali Baş Komandanımızdan öyrənmişik və onun siyasətdəki yolunu idmanda davam etdiririk". Həqiqətən də, bu, belədir və nə yaxşı, nə xoş ki, belədir.

Dünən UEFA-nın rəsmi saytında belə bir başlıq getmişdi: "Tarix dərsliyi üçün". Mənim yadıma möhtərəm Prezidentimizin Şuşa azad ediləndən sonra dediyi söz düşdü: "Bu döyüş tarix dərsliklərində qalacaq". Demək ki, tarix çox ədalətli, çox adekvat formada davam eləyir.

Mən buradan bütün iş adamlarına müraciət etmək istəyirəm. Dünən biz şahidi olduq ki, idman nə böyüklükdə siyasətdir və biz bundan istifadə eləməliyik. Bu, məncə, kinodan da, digər məqamlardan da daha üstündür. Çünki dünən bütün Azərbaycan bu sevinclə yaşayıb. Mən həm də istəyərdim ki, bu gün biz idmanımızın, xüsusən də futbolumuzun təşviqi üçün onlara sponsorluq edən iş adamlarının vergi məsələlərinə xüsusi diqqət eləyək, həm də əhəmiyyətli dərəcədə diqqət eləyək. Çünki bu, onları idmana təşviq eləyər. Çox önəmlidir.

Mən sonda bir məsələyə toxunmaq istəyirəm. "Qarabağ"ın bu gün "Qarabağ" olmasının ən böyük səbəbkarlarından biri də hazırda elə bu Milli Məclisdə oturan və zamanında evini belə satıb son qəpiyinə qədər bu klubun sərəncamına verən hörmətli Aqil Abbasdır. "Qarabağ"ın bu gün "Qarabağ" olmasının əsl səbəbkarları bu cür hünərli və səxavətli kişilərdir. Bir daha bütün Azərbaycan xalqını təbrik edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Ancaq etiraf edək ki, dövlət, hökumət tərəfindən də idmanın inkişafına çox böyük diqqət var. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Fevral ayının 14-də, bax, bu zalda ölkə Prezidenti cənab İlham Əliyevin andiçmə mərasimində onun proqram xarakterli və növbəti 7 il üçün yol xəritəsi hesab oluna biləcək nitqində ən mühüm tezislərdən biri o oldu ki, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılması və regiona sülh prosesinin, dayanıqlı, davamlı, uzunmüddətli sülhün gəlişi ilə bağlı yerindən duran vasitəçilik missiyasını ortaya qoyur. Cənab Prezident onlara söylədi ki, gedin, öz işinizlə məşğul olun. Özünüzün çoxlu problemləriniz var. Bizim məsələlərə müdaxilə etməyin və ikitərəfli format bizim üçün əsas formatdır. Bu, ciddi bir mesaj idi. Biz bu mesajın nəticələrini də gördük. Ölkə Prezidenti cənab İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirakı zamanı Almaniyanın kansleri Olaf Şolts vasitəçilik etmədi. O, sadəcə, bir təşkilatçılıq missiyasını ortaya qoydu, Azərbaycan ilə Ermənistan siyasi liderlərinin görüşünü təşkil etdi və zalı tərk etdi. Bu o deməkdir ki, Bakıda Milli Məclisin bu zalında cənab Prezidentin bəyan etdiyi iki prinsipial mövqe öz təsdiqini tapdı. Görünür, bu, müəyyən siyasi dairələrin yenidən çox ciddi

narazılığına səbəb olub, onların yuxusuna haram qatıb. Hesab edirəm ki, Münxendən sonra Ermənistanın Baş naziri Nikol Paşinyanın tələm-tələsik Parisə dəvət edilməsi və Fransa Prezidenti Emmanuel Makron ilə aparılan danışıqlar... Makron yenə də öz ampulasına sadiq qalaraq, – yeri gəlmişkən, o, Fransanın 25-ci prezidentidir və özündən əvvəlki 24 prezidentin heç birisi bu qədər erməni-pərəst və açıq şəkildə erməni mövqeyindən çıxış eləyən bir xətt həyata keçirməyib, – Ermənistanın fevralın 12-dəki hərbi insidentindən danışarkən Azərbaycanın qeyri-adekvat cavabından bəhs edir. Heç bir halda Ermənistanın ilk atəş açdığı, bizim əsgərimizi yaraladığı, yəni səbəb-karın Ermənistan olduğu ilə bağlı mövqe ifadə etmir, Ermənistanı bundan sonra da silahlandıracağını söyləyir. Elə onun bu mövqeyinin ardınca fevralın 22-də Fransanın müdafiə naziri Ermənistana gəlir. Yeri gəlmişkən, tarixdə bu, ilk dəfədir. Görünür, Fransa, əslində, bu addımları ilə regionda vəziyyəti yenidən gərginləşdirmək istəyir. Bunun bütün elementləri göz qabağındadır. Yenidən Ermənistanı müharibəyə hazırlayırlar, üçüncü Qarabağ müharibəsi istəyirlər. Əgər buna cəhd edirlərsə, doğrudan, Fransanın hərbi-siyasi rəhbərliyi siyasi dəlilik səviyyəsinə enibdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı. Buyurun, Musa müəllim.

**M.Qasımlı**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bir neçə məsələ barədə danışmaq istəyirəm. İlk növbədə cənab Prezidentimiz İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirakı, keçirilən görüşlər, ilk rəsmi səfərini qardaş Türkiyə Cümhuriyyətinə etməsi xarici siyasətimizin parlaq səhifələrindən biridir. Münxendə bir sıra ölkələrin nümayəndə heyətlərinin başçılarının cənab

Prezidentimizlə görüşməyə can atmaları bir tarixi xatırladır. 1923-cü ildə qəhrəman türk milləti İstiqlal savaşında qalib gəldikdən sonra əvvəllər düşmənçilik edən bir sıra dövlətlərin rəhbərləri, rəsmi şəxsləri Qazi Mustafa Kamal Paşa ilə görüşmək, əlini sıxmaq istəyirdilər. Buna bənzər mənzərəni Münxendə cənab Prezidentimiz İlham Əliyevlə görüşlərdə və deyilən sözlərdə də gördük. Millətimiz üçün qürurverici anlar idi.

İkincisi, Ermənistanın Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımın ildönümünü biz fərqli bir əhval-ruhiyədə anırıq. Allah soyqırımı qurbanlarına rəhmət eləsin! 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan tərəfindən törədilən soyqırımı təkcə azərbaycanlılara qarşı törədilən soyqırımı deyildir, bu, bəşəriyyətə, sivilizasiyaya qarşı ağır cinayətdir. Bu qarama dövlətin məlum keçmiş rəhbərləri məsuliyyət daşıyırlar. Xocalıda törədilənlər Ermənistanın dövlət siyasətinin mahiyyətini ortaya qoyur.

Xankəndidə Dövlət Bayrağımızın dalğalanması, ölkəmizin bütün ərazilərində suverenliyimizin bərqərar edilməsi, millətimizin həyatında yeni bir mərhələnin başlanması ilə Xocalı qurbanlarının ruhu da şaddır. Xocalı soyqırımı qurbanlarını ehtiramla anmaq həm keçmişimizi unutmamaq, Ermənistanın simasını göstərmək, həm də buna bənzər hadisələrin təkrarlanmaması baxımından gələcək nəsillərə və dünyaya bir çağırışdır. Bundan ötrü biz bir millət olaraq daim güclü olmalıyıq. Xocalı şəhərində soyqırımı qurbanlarına abidənin qoyulması necə olardı?

Nəhayət, dünən "Qarabağ" futbol klubunun qalib gəlməsi, sadəcə, idmanda qazanılan qələbə deyildir. Bu, dövlətimizin yürütdüyü yumşaq güc siyasətinin bir parçası olan idman diplomatiyamızın millətə ruh verən uğurlu ha-

disələrindən biri, regionu hələ də qarışdırmaq istəyənlərə yaşıl meydanda verilən cavabdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Ulu Öndər Heydər Əliyev 2000-ci il dekabrın 29-da Azərbaycan xalqına müraciət edərkən yeni əsr və üçüncü minillikdə xalq, dövlət qarşısında belə bir vəzifə qoymuşdu ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı, müharibə qurtarmalı, vətəndaşlar sülh və əmin-amanlıq şəraitində yaşamalıdırlar. Bu mənada fevralın 14-də dövlətçilik tariximizin ərazi bütövlüyü çərçivəsində ilk dəfə baş tutmuş Prezidentin andiçmə mərasimi, əslində, Ulu Öndərin görmək istədiyi qalib, qüdrətli, suverenliyini tam təmin etmiş yeni Azərbaycanın qurulduğu gündür.

Düzdür, prezident seçkiləri öncəsi Fransa və onun marionetlərinin, o cümlədən yerli antimilli ünsürlərin timsalında bəzi dairələr Azərbaycana münasibətdə artan əsassız təzyiq cəhdləri fonunda Qərbin seçkinin nəticələrinə mənfi reaksiyasına ümidli idilər. Amma nəticə necə oldu? Seçkidən cəmi iki gün sonra Münxen Təhlükəsizlik Konfransında cənab İlham Əliyevin əlini sıxıb təbrik etmək üçün uzun bir növbə var idi. Azərbaycan Prezidenti konfransda gün yarım ərzində qarşı tərəfin xahişi ilə 30-a yaxın dövlət və hökumət başçısı, beynəlxalq təşkilat rəhbəri, o cümlədən qlobal iqtisadiyyatda söz sahibi olan özəl sektor nümayəndələri ilə görüşdü. Bu, eyni zamanda, Azərbaycanın antiterror tədbirlərinin ardınca yaratdığı yeni status-kvonu dünyanın təhlükəsizlik arxitekturasında qəbul etdirməsi idi.

60-cı Münxen Təhlükəsizlik Konfransı bir daha göstərdi ki, Azərbaycan öz tarixində heç vaxt bu qədər güclü olmayıb. Hər kəs şahid oldu ki, həmişə lokal reallıqlara

köklənməyə məhkum olan Azərbaycan artıq qlobal oyunçu kimi davrana bilir. Prezident İlham Əliyev daxili auditoriyada səsləndirdiyi ritorikanı qlobal təhlükəsizlik konturlarının müəyyən olunduğu platformalarda da qoruya bilir. Məsələn, dövlət başçımız Ermənistanla münasibətlərin əhəmiyyətinin süni şəkildə şişirdilməsinə lüzum olmamasına dair Milli Məclisin tribunasından ifadə etdiyi mövqeyini rahatlıqla ATƏT sədri, yaxud ABŞ dövlət katibi ilə görüşdə də diktə edir.

İndi hər bir azərbaycanlı əlini vicdanına qoysun və özünə sual versin. Əvvəllər biz bu cür davrana bilirdikmi? Bilirsiniz, bəzən eyforiyaya düşüb kimlərinsə rolunun süni şəkildə qabardılmasına şahidlik edirik, amma hər kəs başa düşüb, anlamayan da dərk etməlidir ki, yeni reallığın, bu gücün, zəfərlərin qarantı Heydər Əliyev kursudur.

Azərbaycan xalqı da 7 fevral seçkilərində nümayiş etdirdi ki, reallıqları çox gözəl anlayır və milli iradənin də tələbi o yöndədir. Bu kurs hələ uzun onilliklər davam edəcək. Heydər Əliyev irsi onun layiqli varisi cənab İlham Əliyev tərəfindən hələ uzun dövr ərzində idarəetmə modelindən asılı olmayaraq Azərbaycanı inkişaf və tərəqqiyə aparacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. “Qanunu bilməmək məsuliyyətdən azad etmir” məşhur ifadəsini, hesab edirəm ki, bu gün ermənilər üzərindən rahat bir şəkildə implementasiya etmək olar. Yəni əgər ermənilər keçmiş kobud səhvlərindən nəticə çıxarmırlarsa, bu, onları gələcəkdə öz faciələrindən, cəzalandırılmalarından azad etmir. Bunu, nəhayət, dərk etməlidirlər. Amma çox təəssüf, biz görürük ki, ermənilər bunu dərk etmək istəmirlər. Belə ki, bir neçə

gün öncə Ermənistanda "Miatsum" hərəkatının 36-cı ildönümü qeyd edirdi. Ermənilər yenə orada Azərbaycana qarşı ittihamlar səsləndirdilər. Hesab edirəm ki, bu, həm də onların özlərini ifşa idi.

Biz informasiya mübarizəsində bu amildən mütləq şəkildə istifadə etməliyik. Yəni beynəlxalq strukturlarda, xüsusi ilə də Fransa Prezidenti son olaraq Paşinyanla görüşü zamanı ermənilərin Qarabağa qayıtmasının vacibliyini vurğuladı. Avropa tribunalarından, platformalarından həmişə eşitdiyimiz mövqe də ondan ibarətdir ki, vaxtı ilə Azərbaycan ərazisində olan ermənilərin hüquqları və təhlükəsizliyi beynəlxalq mexanizmlər vasitəsi ilə tənzimlənməlidir. Bu, əsas məqsədə çox dəqiq aydınlıq gətirir. Yəni məqsəd ondan ibarətdir ki, yenə də Azərbaycan ərazisində separatizm mövcud olsun. Biz bu məsələni qabartmalıyıq. Beynəlxalq informasiya mübarizəsi bizim qarşımızda duran əsas mübarizədir. Bunu ölkə Prezidenti də dəfələrcə qeyd edibdir. Ermənilərin "Miatsum"un 36-cı ilini qeyd etməsi, düşünürəm, bu gün bizim əsas silahımıza çevrilməlidir ki, ermənilər Azərbaycan ərazisində gələcəkdə hansı məqsədlərə çatmaq istəyirlər. Bu, çox təhlükəlidir.

Hesab edirəm ki, bu gün Avropa platformalarında və ümumiyyətlə, istənilən beynəlxalq platformada ermənilərin iç üzünü açmaq üçün bu və buna oxşar amillərdən çox ciddi fəallıqla istifadə etməliyik. İmkan verməməliyik. Çünki Ermənistan bu gün Cənubi Qafqaz regionunda çox təhlükəli geosiyasi ambisiyaların alətinə çevrilibdir. Bu, təkcə Azərbaycan xalqı üçün təhlükə yaratmır. Bütün region xalqları üçün çox ciddi təhlükədir. Hesab edirəm ki, Bakı qlobal təhlükəsizliyin təmin olunması istiqamətində bir sıra təşəbbüslərə evsahibliyi etdiyi kimi, ayrıca

olaraq tematik müzakirə kimi məhz bu məqsədlər üzrə də bir toplantı məkanına çevrilməlidir. Region xalqlarının imkanları səfərbər olunmalıdır ki, Cənubi Qafqaz regionu ilə bağlı təhlükəli planların qarşısı alınsın. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev**. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Aradan hardasa 10 gün keçməsinə baxmayaraq, yəqin, çoxumuz hələ də cənab Prezidentin burada andiçmə mərasimində etdiyi çıxışının təsiri altındayıq. Qarşımızda təkcə müzəffər deyil, həm də mütəfəkkir Ali Baş Komandanın dayandığını göstərən həmin çıxışda, əslində, məncə, yeni milli ideyanın bəlli konturları vardır.

Təkcə özü deyil, ata-anası Əlcəzairdə doğulan Alber Kamyu deyirdi ki, onun vətəni anadan olduğu yer deyil, fransız dilidir. Mən belə başa düşürəm ki, bizim yeni milli ideyamız da ana dilini vətən sayanlara söykənən və onlara hər yerdə qahmar çıxan, heç kimin torpağında gözü olmayan və daha heç kimə torpaq verməyəcək böyük, güclü Azərbaycandır.

Dövlət başçımızın buradakı çıxışında da vurğulandığı kimi, bizim güclülüyümüzü təmin edəcək fundament texnoloji inkişaf olmalıdır ki, ötən həftə Münxendə keçirilən görüşlərdəki əsas mövzulardan biri də bu, idi. Ancaq onun ardınca Prezidentimizin Türkiyəyə səfərində biz Azərbaycanda texnoloji inkişafın, 4-cü sənaye inqilabının ön cərgəsində gedəcək, belə demək mümkünsə, xüsusi təyinatlıların, yəni rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellekt üzrə mütəxəssislərin də hazırlığında bizə ən böyük dəstəyi yenə qardaş ölkənin verəcəyini gördük və həmin kadrların müəyyən bir hissəsi məhz Türkiyə–Azərbaycan universitetində yetişdiriləcək. Bu səfərin üzə çıxardığı bir reallığı, yəni "iki dövlət, bir ordu" modelinin

ölkələrimizin hərbi sənaye komplekslərini və tətbiqinin planlaşdırılmasını mən həm də türk dünyasının qütb və güc mərkəzinə çevrilməsi yolunda atılan mühüm addım kimi dəyərləndirirəm və fəxr edirəm ki, 10 deyil, 50 milyondan artıq insanı özününkü sayan dövlət olaraq Azərbaycan burada öndə getməsi və açıq mövqe ortaya qoyması ilə fərqlənir.

Yəqin ki, türk düşməni və islamofob Makronun ölkəmiz əleyhinə son açıqlamaları həm də bununla bağlıdır. "Həm də" sözünü ona görə işlədirəm ki, Fransa Münxendə Almaniya kansleri Şoltsdan tutmuş, Birləşmiş Ştatların üç yüksək vəzifəli rəsmisinədək keçirilən görüşləri öz meydançasında qapısına vurulmuş qol və cənab İlham Əliyevin Xankəndidə seçki qutusuna atdığı bülletenlə bağlı söylədiyi fikrin tam təsdiqini tapması kimi dəyərləndirirdi. Məhz bunun nəticəsidir ki, Paşinyan təcili Parisə dəvət edildi, ona KTMT-də fəaliyyətlərini dondurmaq, guya Azərbaycanın ölkəsini ələ keçirməyə hazırlaşdığı haqda yalan danışmaq tapşırığı verildi və ardınca müdafiə nazirləri dərhal Ermənistana göndərildi. Bu da ancaq bir məqsədə xidmət edir. Yelisey sarayındakılar Ermənistanı Suriyaya çevirmək, bizim regionu isə yenidən savaşa sürükləmək niyyətindədirlər. Təbii, dövlətimiz bunu görməzdən gələ bilməz və əminəm ki, gəlməyəcək də. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Vahid müəllim, buyurun.

**V.Əhmədov**. Çox sağ olun, Sahibə xanım. Hörmətli Sahibə xanım, millət vəkilləri, mətbuat nümayəndələri. Prezident İlham Əliyevin yenidən dövlət başçısı seçilməsindən sonra ilk ciddi diplomatik sınağı fevralın 16-18-də keçirilən Münxen Təhlükəsizlik Konfransındakı iştirakı

oldu. Konfransda həm dövlət başçısı İlham Əliyev, həm də Ermənistanın Baş naziri Nikol Paşinyan bir sıra görüşlər keçirdi. Azərbaycanın konfransdakı iştirakını kifayət qədər uğurlu adlandırmaq olar. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa edən qalib lider kimi qarşılanan İlham Əliyev müxtəlif dövlət başçıları ilə keçirdiyi görüşlərdə yüksək hörmətlə qarşılanmış, danışıqlarda Azərbaycanın müəyyən etdiyi müzakirə sərhədləri gözlənilmişdir. Fransanın Azərbaycan və Ermənistan arasında keçirilən görüşdə iştirak etməkdə israrına baxmayaraq, Azərbaycan bu məsələdə mövqeyini bildirərək bu iştirakı istisna etmişdir. İlham Əliyevin siyasi qətiyyəti sayəsində danışıqlar vasitəsiz baş tutmuş və hər iki ölkənin xarici işlər nazirlərinə sülh müqaviləsi ilə bağlı görüş və sərhədlərin delimitasiyası üzrə komissiyanın iclası barədə təlimatlar verilmişdir.

Münxen Təhlükəsizlik Konfransında Azərbaycan və Ermənistan arasındakı danışıqlardan kənarda qalan Fransa tarix boyu olduğu kimi, yenə də öz məkrli siyasətinə davam edərək qərəzli mövqe tutmaq və regionu qarışdırmaq cəhdlərinə davam etmişdir. Təsadüfi deyil ki, Münxen Təhlükəsizlik Konfransının bitməsindən qısa müddət sonra Paşinyan Fransaya səfər etmiş, Emmanuel Makron Nikol Paşinyanı qəbul edən zaman Azərbaycanın əleyhinə bir sıra bəyanatlar səsləndirmişdir. Sərsəm açıqlamaları ilə gündəmə gələn Makron yenidən Fransanın Ermənistana dəstəyini ifadə edərək sərhəddə qoşunların qarşılıqlı geri çəkilməsini və Azərbaycanın Qarabağa qayıtmaq istəyən ermənilərin təhlükəsizliyi məqsədi ilə şəraitin təmin edilməsi üçün addım atmalı olduğunu bildirmişdir. Bunun üçün ilk növbədə anlamaq lazımdır ki, Ermənistan 1980-ci illərin sonlarında öz ata-baba torpaqlarından qovulmuş

minlərcə azərbaycanlının geri qayıtması ilə bağlı öhdəlik götürməlidir.

Hörmətli xanım sədr, Sizin Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasındakı çıxışınızı da, Fransa ilə əlaqədar fikirlərinizi də dəstəkləyir və yerində səsləndirilmiş zəruri fikirlər kimi qiymətləndirirəm. Ancaq heç bir dövlət unutmamalıdır ki, Azərbaycanın Türkiyə kimi güclü və qüdrətli müttəfiqi var. Dövlət başçısı həmişə olduğu kimi, bu dəfə də Prezident seçkilərindən sonra ilk rəsmi səfərini Türkiyəyə etmişdir. Tərəflər bir çox sahədə əməkdaşlığa davam edəcəklərini və bir-birilərini dəstəkləyəcəklərini bir daha bəyan etmişlər. "Azərbaycan Ordusu Türkiyə Ordusunun böyük modeli əsasında inkişaf edir" cümləsi məhz İlham Əliyevə məxsusdur. Yəni bu məsələlər diqqət mərkəzindədir, mən belə hesab edirəm ki, ümumiyyətlə, Fransanın...

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Artıq bir ənənə halını alıb ki, Milli Məclisin hər iclasında əvvəlki iclasdan ötən dövrdə baş verən mühüm hadisələrə deputatlar öz münasibətlərini bildirirlər. Bu, düzgündür və bu, bir daha göstərir ki, deputatlar cəmiyyətdə baş verən, dövlətçiliyimizə aid olan məsələləri diqqətdə saxlayırlar.

Əsas hadisələrdən biri cənab Prezidentimizin Münxen Təhlükəsizlik Konfransında iştirakı və orada qarşı tərəflərin Azərbaycan Prezidenti ilə görüşməsi üçün müraciət etməsi idi. Azərbaycan Prezidenti orada Azərbaycanın milli maraqlarını yüksək səviyyədə qoruya bildi.

Eyni zamanda, cənab Prezidentimizin ilk rəsmi dövlət səfərini Türkiyəyə etməsi də Azərbaycan–Türkiyə dostluğunun yüksək səviyyədə olduğunu göstərir. Diqqəti çəkən məsələlərdən biri də Azərbaycan və Türkiyə arasında

ticarət dövriyyəsinin iki dəfə artırılaraq 15 milyard dollara çatdırmaq prioritetinin götürülməsi idi. Bu, yeni iş yerləri deməkdir, bu, milyonlarca investisiya deməkdir, bu, Azərbaycan və Türkiyənin iqtisadi cəhətdən qüdrətlənməsi deməkdir.

Hörmətli xanım sədr, bu günlərdə Bakıda keçirilən Asiya Parlament Assambleyasının yüksək səviyyədə təşkili onu göstərdi ki, Azərbaycan dünya diplomatiyasının mərkəzlərindən birinə çevrilib. Eyni zamanda, şəxsən Sizə dünən Azərbaycanın milli maraqlarını müdafiə edən məzmunlu çıxışınıza görə öz təşəkkürümü bildirmək istəyirəm.

Əlbəttə, bu gün müzakirə edəcəyimiz məsələlərdən biri də keçmiş ədliyyə naziri Fikrət Məmmədovun Konstitusiya Məhkəməsinə hakim təyin edilməsi məsələsidir. Mən əvvəlcədən Fikrət müəllimi təbrik etmək istəyirəm. Fikrət müəllim Azərbaycanda tanınan, hüquq sisteminin daha da təkmilləşdirilməsi, modernləşməsi üçün xidmətləri olan bir insandır. İnanıram ki, onun Konstitusiya Məhkəməsinə seçilməsi Konstitusiya Məhkəməsinin işinin daha məhsuldar olmasına və üzərinə qoyulan vəzifələrin vaxtında yerinə yetirilməsinə səbəb olacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra regionda yeni düzən formalaşıb. Cənab Prezidentin ötən həftə Münxen görüşləri bir daha təsdiq edir ki, Azərbaycan regionda orta gücə çevrilməkdədir. Məhz Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyinin gücləndirilməsi həm də regionda reallaşan layihələrə Azərbaycanın söz sahibi, ev sahibi olaraq təsiri imkanlarını artırıb.

Bir neçə gün öncə Amerika Birləşmiş Ştatlarının Cənub Qaz Dəhlizinin genişləndirilməsi ilə bağlı bəyanatı bir tərəfdən Azərbaycan xarici siyasətinin uğuru kimi qiymətləndirməklə yanaşı, eyni zamanda, xüsusən son illər ölkəmizə qarşı qarayaxma kampaniyası aparan, ikili standartlar əsasında qərəzli qətnamələr qəbul edən beynəlxalq təşkilatlara da bir mesajdır. Bu mesaj ondan ibarətdir ki, Azərbaycanın reallaşdırdığı layihələr hələ uzun müddət regionun və eləcə də Avropa İttifaqının enerji təhlükəsizliyinə töhfə verəcək. Azərbaycan, bir tərəfdən, regionun enerji təhlükəsizliyinə töhfə verir, digər tərəfdən, nəqliyyat və logistik layihələri reallaşdırmaqla regionun inkişafını dəstəkləyir. Xüsusən nəzərə alsaq ki, Cənub Qaz Dəhlizinin ötürmə qabiliyyətinin 31,5 milyard kubmetrə qədər artırılması artıq həm Avropada, həm də regionda daha çox ölkələrin Azərbaycan mavi qazını idxal etməsinə imkan verəcək. Bu rəqəmin 7-dən hətta ikirəqəmli rəqəm həddinə qədər yüksələcəyi gözlənilir. Bu, təbii, Azərbaycanın geosiyasi mövqeyini gücləndirməklə yanaşı, bir daha təsdiq edir ki, möhtərəm Prezidentin rəhbərliyi ilə həyata keçirən siyasət birmənalı şəkildə regionda Azərbaycanı yeni gücə çevirib. Bu, həm iqtisadi gücdür, həm siyasi gücdür, həm də, təbii ki, hərbi gücdür.

Eyni zamanda, Azərbaycanın COP29 kimi kifayət qədər beynəlxalq və iştirakçı səviyyəsinə görə dünyanın ən böyük tədbirinə evsahibliyi etməsi, eləcə də bərpa olunan enerji sektoruna yönəldilən investisiyalar və cənab Prezidentin andiçmə mərasimində qeyd etdiyi kimi, yaxın dövrlərdə ümumi istehlakda "yaşıl enerji"nin payının artması imkan verəcək ki, Azərbaycan artıq region bazarına yalnız ənənəvi məhsullarla deyil, həm də innovativ məhsullarla – "yaşıl enerji" ilə daxil ola bilsin. Artıq 2026-cı ildən

etibarən Azərbaycanda istehsal edilən “yaşıl enerji”, yəni alternativ mənbələrdən əldə edilən enerji Avropa İttifaqı bazarına daxil olacaq. Bu bizim üçün artıq Avropa bazarına və bütövlükdə, region bazarına daxilolmada yeni bir innovativ yanaşmadır. Bütün bunlar göstərir ki, son illər, bütövlükdə, son 20 ildə aparılan siyasət Azərbaycanın geosiyasi mövqeyini daha da gücləndirib və bu, yeni dövrdə yeni imkanlar deməkdir. Çox təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc**. Hörmətli sədr, ölkəmizə qarşı son beynəlxalq hücumların ön cərgəsində yer alan Almaniya Bundestaqının üzvü Frank Şvab fevralın 16-da Münxen sammiti keçirilən günlərdə özünün “X” səhifəsində paylaşım edərək martın 6-da “Uçurumun kənarında” adlı film nümayiş etdirəcəklərini, Azərbaycanın Avropa Şurası və digər beynəlxalq təşkilatlarda apardığı siyasətə zərbə vuracaqlarını bildirib. Sitat: “Filmin məqsədi sarsıdıcı olmaq və dəyişiklik gətirməkdir”. Sual olunur, onlar hansı dəyişikliklərdən danışırlar?

Sirr deyil ki, söhbət Amerika, Fransa və Almaniya dövlətlərinin qələbəmizdən sonra regiondan çıxarılan dayaqlarından, Cənubi Qafqaza onların iqtisadi və silahlı qayıdışından gedir. Ona görə də Prezident İlham Əliyev andiçmə mərasimində məhz bu salonda yüksək tribunadan bəyan etdi: “Sarsılmaz daşları tərpətdiyimiz üçün bizdən əl çəkməyəcəklər, hücumlar artacaq, lakin bizim cavab tədbirlərimiz də təsirli olacaq”. Halbuki Şvab parlamentarilərimizin mandatı ilə bağlı qərara o münasibətdən yanaşırdı ki, Azərbaycan qərbli siyasətçiləri satın aldığı üçün onlar təmiz, maaşları ilə dolanan, hətta Martin Lüter Kinq kimi ölümü ilə yüksək siyasi iddialarından dönməyəm sadiq avropalıları bizim əleyhimizə birləşdiriblər. Amma

son 30 ildə elə bir amerikalı və qərbli siyasətçi tanımırıq ki, sonda bu Menendez və Yeva Kalin kimi korrupsiya qalmaqalında ifşa olunmasınlar.

BBC-yə müsahibəsində Şvab deyir ki, biz ərazi münaqişələri ilə məşğul olmuruq. Onda son iki ildə Ukrayna müharibəsi üzrə niyə dəfələrcə məsələni müzakirəyə çıxarıblar, 8 qətnamə və qərar qəbul ediblər, Rusiyanı təcavüzkar adlandırıblar? Bəs ölkəmizlə bağlı eyni addımları nə zaman atmışdılar?

Nikol Paşinyanın fevralın 19-da Münxen sammiti proqramında təşəkkür medalı ilə təltif etdiyi Avroparlamentin Təhlükəsizlik komitəsinin sədri, Azərbaycana qarşı şəbəkənin əsas simalarından olan Natali Luazo bəyan edir ki, onların əsas məqsədi bölgədə yerləşdirdikləri Avromissiyanın fəaliyyətidir. Bəli, strateji hədəf NATO-nun hərbi qüvvələrinin regiona müdaxiləsi üçün zəmin hazırlamaqdır və fevralın 12-də sərhəddəki insidentin səbəbi də Zəngəzur dəhlizinə Qərbin hərbi korpusunu gətirməkdir.

Avropa Birliyinin Ermənistandakı səfiri Vasilis Maraqos fevralın 12-dəki müsahibəsində deyir: “Sünik (onun dili ilə söyləyirəm) Ermənistanın təhlükəsizliyi üçün vacib bölgədir və xariclə əlaqə üçün strateji yoldur. Ona görə də ora 110 milyon avro vəsait ayırmışıq”. Sual olunur, ölkəmiz nə vaxt həmin əraziləri müharibə yolu ilə alacağını bəyan edib ki, Avropa Birliyi Zəngəzura belə böyük vəsaitlər yatırır? Artıq gördüyümüz kimi, Rusiya ilə yanaşı, İran, Amerika, Avropa Birliyinin missiyaları, biznes şirkətləri və digər çətirlər altında hamısı Zəngəzur mahalına yerləşiblər. Ancaq unutmayaq ki, həmin torpağın sahibləri – azərbaycanlılar o yolu açacaqlar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm və biz gündəliyin məsələlərinə

keçirik. Bildiyiniz kimi, bu gün biz 11 məsələni müzakirə etməliyik.

Gündəliyin ilk iki məsələsi Milli Məclisin qərar layihələridir. Biz indi gündəliyin 1-ci məsələsinə keçirik. Möhtərəm cənab Prezidentin təqdimatına əsasən Fikrət Fərrux oğlu Məmmədovun Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi məsələsinə baxılmalıdır və hörmətli Fikrət müəllim buradadır. Mən Sizi salamlayıram, "xoş gəlmisiniz" deyirəm.

İndi isə məsələyə dair məlumat vermək üçün mən sözü Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə verirəm. Əli müəllim, buyurun, məsələyə sizin komitədə baxılıb.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Cənab Prezident tərəfindən Fikrət Məmmədovun Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə namizədliyinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin fevralın 20-də keçirilən iclasında baxılmış və müsbət rəy verilmişdir. Belə ki, Fikrət Məmmədov uzun illər Ulu Öndər Heydər Əliyevin və sonralar Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla fəaliyyət göstərmişdir. O, çalışdığı dövrdə məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsinə öz töhfəsini vermişdir. Onun ədliyyə orqanlarına rəhbərlik etdiyi dövrdə parlamentlə də çox yüksək, səmərəli əməkdaşlıq mühiti mövcud olmuşdur.

Fikrət Məmmədov Azərbaycan hüquq ictimaiyyəti ilə yanaşı, beynəlxalq hüquq ictimaiyyətində də nüfuza malikdir. O, ədliyyə orqanlarını bir çox beynəlxalq təşkilatlarda ləyaqətlə təmsil etmişdir, bütün fəaliyyəti dövründə yüksək peşəkarlığı, qanunun aliliyinə hörməti və eyni

zamanda, nəcib insani keyfiyyətləri ilə fərqlənmişdir.

Fikrət Məmmədov Azərbaycan Respublikasının əməkdar hüquqşünasıdır. Belə peşəkar və təcrübəli bir hüquqşünasın Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə namizədliyinin verilməsi təqdirəlayiqdir.

Hörmətli deputat həmkarlar, əminik ki, Fikrət Məmmədovun namizədliyi Milli Məclis tərəfindən də dəstəklənəcək və o, bundan sonra bilik və bacarıqlarını ali konstitusiya ədalət mühakiməsi orqanında həyata keçirməklə hüquq sisteminin inkişafına öz töhfəsini verəcəkdir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Yazılanlar var, əgər heç kim təkid etmirsə...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təkid edən var. Qüdrət Həsənquliyev. Buyurun, Qüdrət müəllim.

**Q.Həsənquliyev**. Hörmətli sədr, çıxış üçün imkan yaratdığınıza görə çox təşəkkür edirəm. Azərbaycan Respublikasının Prezidenti Konstitusiya ilə ona verilmiş səlahiyyətdən istifadə edərək Fikrət Məmmədovun namizədliyini müzakirəyə təqdim edib. Mən, sadəcə, bir məsələni həm Sizin, həm də həmkarlarımızın diqqətinə çatdırmaq istəyirəm ki, "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 14.3-cü maddəsinə görə "Konstitusiya Məhkəməsi hakiminin vəzifədə olmasının yaş həddi 70 yaşdır", Fikrət müəllimin hələ 1 il 4 ay vaxtı var. Yəni bu məsələdə heç bir problem yoxdur. Mən, sadəcə, diqqəti ona yönəltmək istəyirəm ki, Konstitusiya Məhkəməsinin digər üzvləri var ki, onların 70 yaşları tamam olub və üstündən də xeyli vaxt keçir. Amma onlarla bağlı yeni təqdimatlar daxil olmur.

Hörmətli həmkarlar, biz təkcə Konstitusiya Məhkəməsində deyil, digər dövlət orqanlarında da qanunla müəyyən olunmuş yaş həddini aşan insanların vəzifədə qalmasını

görürük. Hesab edirəm, Azərbaycanda kifayət qədər hazırlıqlı, karyera yüksəlişi gözləyən vicdanlı hüquqşünaslar var. Onlar o vəzifələrə təyin oluna bilərlər. Əgər reallıqda bunu etmək mümkün deyilsə, onda qanunları dəyişmək lazımdır. O cümlədən "Konstitusiya Məhkəməsi haqqında" Qanunu da dəyişib, o "70 yaş" ifadəsini çıxarmaq lazımdır. Yaxud hakimlərlə, digər dövlət orqanlarında çalışan vəzifəli şəxslərlə bağlı o yaş məhdudiyyətini aradan qaldırmaq lazımdır. Ona görə ki, dövlət hakimiyyəti orqanları qanunlara əməl etməyəndə bu, vətəndaşlar üçün pis nümunə olur. Ona görə də mən təklif edirəm ki, tezliklə biz müvafiq icra hakimiyyəti orqanı ilə müzakirələr aparaq və qanunları mövcud reallıqlara uyğunlaşdıraq. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əgər səsə qoymaq təklifi qüvvəsindədirsə, mən də iki kəlmə söz demək istəyirəm. Sizin təklifiniz faktiki olaraq sübut edir ki, tanınmış hüquqşünas, səriştəli və təcrübəli mütəxəssis olan çox hörmətli Fikrət müəllim Məmmədov çətin və məsuliyyətli vəzifədə uğurla fəaliyyət göstərəcək. Mən indi məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Fikrət müəllim, mən Sizi parlament adından təbrik edi-

rəm. Əgər bir sözünüz varsa, buyurun.

**F.Məmmədov,** *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimliyinə namizəd.*

Hörmətli sədr, hörmətli millət vəkilləri. İlk növbədə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə məni bu mühüm vəzifəyə təqdim etdiyinə görə dərin təşəkkürümü bildirirəm. İcazənizlə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi hakiminin andını səsləndirərəm.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi səlahiyyətlərini müstəqil, qərəzsiz, vicdanla həyata keçirəcəyimə, Azərbaycan Respublikası Konstitusiyasının aliliyini qoruyacağıma, baxdığım məsələləri müstəqil, qərəzsiz və ədalətlə həll edəcəyimə and içirəm.

Hörmətli millət vəkilləri, Ulu Öndərin müəllifi olduğu Konstitusiyanın aliliyinin qorunmasına xidmət etmək olduqca şərəfli və məsuliyyətli vəzifədir. Bu gün özünün ən qüdrətli dövrünü yaşayan Azərbaycan ölkə Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etmiş və həmin ərazilərdə Konstitusiyamızın hüquqi qüvvəsi bərpa olunmuşdur. Hazırda dövlət başçısının rəhbərliyi və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəal iştirakı ilə ərazilərimiz sürətlə bərpa olunur, soydaşlarımızın öz doğma torpaqlarına qayıdışının və konstitusion hüquqlarının bərpasının sevincini yaşayırıq. Belə dövrdə Konstitusiyanın aliliyinin qorunmasına xidmət etməyin mənə nəsib olması həyatımda tarixi əhəmiyyətə malikdir.

Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, mənə göstərilən etimada görə hər birinizə təşəkkürümü bildirirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fikrət müəllim. Biz Sizi təbrik edirik, uğurlar arzulayırıq və Sizi hörmətlə yola salırıq.

Çox hörmətli həmkarlar, biz gündəliyin 2-ci məsələsinə keçirik. Bildiyiniz kimi, qanunvericiliyə uyğun olaraq, hər il Milli Məclis bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın məruzəsini dinləyir. Məsələ ilə əlaqədar olaraq Azərbaycan Respublikası ədliyyə nazirinin müavini hörmətli Vilayət müəllim Zahirov, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi hörmətli Rəhman müəllim Məmmədov və baş məsləhətçisi hörmətli Səfa müəllim Cəfərov iclasımızda iştirak edirlər. Mən qonaqlarımızı salamlayıram və illik məruzəni təqdim etmək üçün, Vilayət müəllim, Sizi kürsüyə dəvət edirəm. Buyurun.

**V.Zahirov,** *Azərbaycan Respublikası ədliyyə nazirinin müavini.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunması üçün hazırlanmış 2023-cü il üzrə illik məruzəni diqqətinizə təqdim edirəm. İllik məruzədə yerli özünüidarəetmə orqanlarının inkişafı, inzibati nəzarətin həyata keçirilməsi, onların fəaliyyətinin təşkilinə kömək və aparılan maarifləndirmə işləri, görülmüş işlərin statistik göstəriciləri, qanunvericilik məsələləri, beynəlxalq əlaqələr və digər məsələlər öz əksini tapmışdır.

İllik məruzənin nəşr olunaraq millət vəkillərinə təqdim edildiyini nəzərə alaraq, mən qısa şəkildə bəzi məqamları diqqətinizə çatdıracağam.

2023-cü il ölkəmiz üçün çox mühüm, əlamətdar hadisələrlə zəngin olmuşdur. Ümummilli Lider Heydər Əliyevin

əziz xatirəsinə dərin ehtiramın ifadəsi olaraq Ulu Öndərin 100 illik yubileyi respublikamızda və onun hüdudlarından kənarda geniş qeyd edilmişdir. Bu münasibətlə Heydər Əliyev irsinə həsr olunan silsilə tədbirlər, o cümlədən "Heydər Əliyev Azərbaycanda yerli özünüidarəetmənin banisidir" mövzusunda konfrans keçirilmişdir. Bələdiyyələr tərəfindən də Ulu Öndərin yubileyinə həsr olunan yüzlərcə müxtəlif tədbir, o cümlədən idman və intellektual yarışlar, müsabiqələr, ağacəkmə aksiyaları təşkil edilmişdir.

2023-cü ilin sentyabr ayında birgünlük keçirilən lokal antiterror tədbirləri nəticəsində Qarabağda separatizmə birdəfəlik son qoyularaq ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi ən böyük tarixi nailiyyətimizdir. Ölkə Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndidə üçrəngli bayrağımızın ucaldılması, noyabrın 8-də Xankəndinin mərkəzi meydanında keçirilən Zəfər paradı Azərbaycanın qüdrətini dünyaya bir daha nümayiş etdirdi və hər birimizin qəlbində sonsuz qürur hissi yaratdı.

Bu gün Azərbaycan həm də azad edilmiş ərazilərimizdə öz gücü hesabına aparılan genişmiqyaslı quruculuq işləri ilə dünyanı heyrətləndirir. İşğal vaxtı büsbütün dağıdılmış, talan edilmiş, minalanmış torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yorulmaz fəaliyyəti, rəhbərliyi və şəxsi nəzarəti ilə sürətlə dirçəlir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə tarixi, mədəni və dini abidələrimiz bərpa olunaraq əvvəlki siması özünə qaytarılır.

Aparılan genişmiqyaslı quruculuq işləri və ölkəmizin əldə etdiyi tarixi qələbə bölgədə yeni reallıqlar yaratmış və bu, bəzi qüvvələri narahat etmişdir. Avropa Yerli və Re-

gional Hakimiyyətlər Konqresinin 45-ci sessiyasında gündəlikdən kənar olaraq Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı qərəzli bəyannamənin qəbul edilməsi təəssüf doğurmuş və Azərbaycan nümayəndə heyəti tərəfindən dərhal bəyanatla çıxış edilmişdir.

Bununla bağlı Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən konqresin yeni seçilmiş prezidentinə müraciət ünvanlanaraq kəskin etiraz ifadə olunmuş və müraciətin mətni diplomatik kanallar vasitəsi ilə konqresin yeni rəhbərliyinə təqdim edilmişdir.

Hörmətli deputatlar, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda bütün sahələri əhatə edən genişmiqyaslı quruculuq işləri, davamlı tərəqqi yerli demokratiyanın, bələdiyyə institutunun inkişafına da aiddir. Ötən il ərzində yerli özünüidarəetmə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üzrə tədbirlər davam etdirilmişdir.

Ölkə Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası məqsədi ilə Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında və onun tətbiqi ilə bağlı ölkə Prezidentinin sərəncamında dəyişikliklərlə bağlı layihələr hazırlanmış və aidiyyəti qurumlarla razılaşdırılaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur. Layihələr hazırlanarkən əvvəlki illik məruzələrin Azərbaycan Respublikasının Milli Məclisində müzakirəsi zamanı deputatlar tərəfindən səsləndirilmiş təkliflər nəzərə alınmışdır.

Dövlət idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, müasirləşdirilməsi zərurəti ilə bağlı möhtərəm Prezidentimiz tərəfindən fikirlər səsləndirilib, tapşırıqlar verilib. Yerli özünüidarəetmə orqanı kimi bələdiyyələrin fəaliyyətində səmərəliliyin artırılması da mühüm vəzifələrdəndir. Bələdiyyələrin sayının azaldılması, onların maliyyə, iqtisadi potensialının möhkəmləndirilməsi, yerli əhəmiyyətli məsələlərin həllində fəallıqlarının yüksəldilməsi və digər məsələlərlə bağlı Milli Məclisdə dəfələrlə təkliflər irəli sürülüb. Bildirmək istəyirəm ki, bununla əlaqədar müəyyən işlər görülüb və yaxın zamanlarda biz bu sahədə yenilikləri, ciddi dəyişiklikləri görəcəyik.

Qanunvericiliyin tələblərinə uyğun olaraq bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət tədbirləri davam etdirilmiş, 2023-cü ildə hüquqi ekspertiza üçün təqdim olunan bələdiyyə aktlarının sayı ilk dəfə 100 mini keçərək 8 faiz artmışdır. Nəticədə 96 faiz aktın qanunvericiliyə uyğun olduğu müəyyən edilmişdir. Normativ hüquqi aktların tələblərinə zidd olan 3800-dən çox aktın "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dəyişdirilməsi və ya ləğv edilməsi üçün aidiyyəti bələdiyyələrə təkliflər verilmişdir. Verilmiş təkliflərdən 37-si bələdiyyələr tərəfindən təmin edilmədiyindən həmin aktların ləğvi və ya dəyişdirilməsi üçün məhkəmələrdə iddialar qaldırılmışdır.

Dövlət başçısının insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların, o cümlədən şəhid ailələrinin, müharibə veteranlarının müraciətlərinə xüsusi diqqətlə yanaşılması ilə bağlı tapşırıqlarının icrası gündəlik nəzarətdə saxlanılmışdır. Qanunvericiliklə müəyyən edilmiş qaydada baxılmış 4487 müraciətin 455-i təmin edilmişdir ki, bu da ötən dövrlə müqayisədə 12 faiz çoxdur. Eyni zamanda, şəhid

ailə üzvlərinin, müharibə əlilləri və iştirakçılarının müraciətlərinin 189-u, başqa sözlə, yarıdan çoxu təmin edilmişdir.

Nazirlik tərəfindən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət həyata keçirilərkən bələdiyyə torpaqlarının idarə edilməsi ilə bağlı qanunvericiliyin tələblərinə əməl olunması daim diqqət mərkəzində saxlanılır. Həyata keçirilən inzibati nəzarət tədbirləri nəticəsində, ümumilikdə, 14 min hektardan çox torpaq sahəsinin, o cümlədən 8405 hektar örüş sahəsinin bələdiyyə mülkiyyətinə və ya sahibliyinə qaytarılması təmin edilmişdir ki, bu da əvvəlki illə müqayisədə 1195 hektar çoxdur, eyni zamanda, son 10 ildə ən yüksək nəticədir.

2023-cü ildə bələdiyyə vəsaitinin təyinatına uyğun istifadə olunması, korrupsiyaya və digər hüquqpozmalara şərait yaradan halların qarşısının alınması istiqamətində qanuna müvafiq tədbirlər görülmüşdür. Aparılan araşdırmalar zamanı aşkar edilmiş daha ciddi qanun pozuntuları üzrə 30 halda toplanmış materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti istintaq orqanlarına göndərilmişdir. Həmin materiallardan artıq 15-i üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılmışdır və millət vəkillərinə təqdim olunan illik məruzədə bu barədə geniş qeyd edilmişdir.

İl ərzində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 549-cu maddəsi ilə 76 bələdiyyə sədri barəsində inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilmiş, həmin protokollar əsasında 63 bələdiyyə sədri məhkəmələr tərəfindən inzibati məsuliyyətə cəlb olunmuşdur.

Hörmətli deputatlar, 2023-cü ildə bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək, onlara metodoloji yardım gös-

tərilməsi ilə bağlı tədbirlər davam etdirilmişdir. Bələdiyyələrlə aparılan metodoloji işdə yerli büdcə gəlirlərinin artırılması məsələləri xüsusi ilə diqqətdə saxlanılır. Nazirliyin metodiki köməkliyi ilə görülən işlər nəticəsində son 3 ildə yerli büdcə gəlirləri 12 milyon manatdan çox, yəni 35 faiz, o cümlədən yerli vergilərdən daxilolmalar 6 milyon manat, 43 faiz artaraq bələdiyyələrin gəlirləri 47,4 milyon manat səviyyəsinə yüksəlmişdir. Yerli büdcə gəlirlərinin artım dinamikası bu il də davam etmişdir.

Bələdiyyələrin yerli əhəmiyyətli məsələlərin həllində gördükləri tədbirlər barədə ictimaiyyətin ətraflı məlumatlandırılması daim diqqətdə saxlanılmışdır. Nazirliyin tövsiyəsi və metodiki köməkliyi ilə 2023-cü ildə bir sıra bələdiyyələr tərəfindən yerli əhalinin rifahı naminə görülən işlər barədə broşürlər hazırlanaraq çap edilmiş və bələdiyyələrin ərazisi üzrə vətəndaşlara çatdırılmışdır.

2023-cü ildə bələdiyyə üzvlərinin və qulluqçularının hüquqi maarifləndirilməsi də diqqət mərkəzində olmuşdur. Ötən il, ümumilikdə, 289 maarifçilik tədbiri həyata keçirilmiş, tədbirlərdə iştirak edən bələdiyyə nümayəndələrinin sayı 2022-ci illə müqayisədə 57 faiz artaraq 9 min nəfərə yaxın olmuşdur. Ayrı-ayrı aktual məsələlərə dair 32 tövsiyə hazırlanaraq bütün bələdiyyələrə çatdırılmışdır. Həmçinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi zamanı aşkar edilmiş konkret qanun pozuntularının və nöqsanların aradan qaldırılması və ya təkrar törədilməsinin qarşısının alınması məqsədi ilə ayrı-ayrı bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 12 min 200-dən çox tövsiyə göndərilmişdir. Tövsiyələrdə toxunulan məsələlər üzrə müvafiq qanunvericiliyin tələbləri ətraflı izah edilmişdir.

Ötən il ərzində aidiyyəti qurumlarla əməkdaşlıq çərçivəsində yerli özünüidarəetmənin aktual mövzularına həsr

olunmuş bir sıra tədbirlər keçirilmiş, xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə təcrübə mübadiləsinin aparılması diqqətdə saxlanılmışdır. Bələdiyyələrin milli assosiasiyalarının  yaxından iştirakı ilə Türkiyə, Şimali Kipr Türk Respublikası, Bosniya və Herseqovina bələdiyyələri və Azərbaycan bələdiyyələri arasında tədbirlər təşkil olunmuşdur. Bu tədbirlərdə türk dünyası ölkələri arasında münasibətlərin daha əhatəli və ardıcıl qurulmasında bələdiyyələrarası əməkdaşlığın xüsusi əhəmiyyəti vurğulanmışdır.

Ötən ilin noyabr-dekabr aylarında BMT-nin İnkişaf Proqramının Azərbaycandakı nümayəndəliyi tərəfindən Bakı şəhərində və regionlarda, yəni Lənkəranda, Mingəçevirdə, Şəkidə təlimlər keçirilmişdir. Tədbirlərdə bələdiyyə nümayəndələri, bələdiyyələrlə iş mərkəzinin və regional ədliyyə idarələrinin əməkdaşları iştirak etmişlər.

Hörmətli deputatlar,  bu il ölkəmizdə bələdiyyələrin yaranmasının 25 ili tamam olur. Bununla əlaqədar Ədliyyə Nazirliyi tərəfindən tədbirlər planı işlənib hazırlanmışdır. Tədbirlər planında aidiyyəti qurumların iştirakı ilə il boyu silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Çıxışımı yekunlaşdıraraq qeyd etmək istərdim ki, ümumilikdə, 2023-cü il ərzində həyata keçirilən tədbirlər ölkəmizdə bələdiyyələrin fəaliyyətində  qanunçuluğun təmin olunmasına, yerli büdcə gəlirlərinin yaxşılaşdırılmasına, bələdiyyələrin  yerli özünüidarəetmə orqanı kimi ictimai nüfuzunun artırılmasına və digər aktual məsələlərin həllinə yönəlmişdir. Cari ildə də bələdiyyələrdə işin səmərəliliyinin artırılması istiqamətində tədbirlər davam etdirilir. Diqqətinizə görə  təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vilayət müəllim. Xahiş edirəm, Siz əyləşin.

Hörmətli həmkarlar, illik məruzəyə həmişə olduğu kimi, profil komitədə – Regional məsələlər komitəsində baxılıb. Komitənin sədri hörmətli Siyavuş müəllim, xahiş edirəm, Siz məlumat verin, rəyinizi bildirin.

**S.Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli qonaqlar. Biz də komitədə bu məsələni geniş müzakirə etdik, 2 saatdan artıq müzakirəmiz oldu. Demək olar ki, qoyulan bütün suallara aydınlıq gətirildi.

2023-cü il, doğrudan da, ölkəmiz üçün çox uğurlu illərdən biridir. Son 100 ilin ən uğurlu illərindən biridir. Ümummilli Liderin 100 illiyi, cənab Prezidentin prezidentlik fəaliyyətinin 20 illiyi, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, seçkilərin keçirilməsi və gələcəkdə də bələdiyyə seçkilərinin keçirilməsi çox vacib amillərdən biridir. Bunlar tarixi hadisələrdir. Bu dövrdə bələdiyyələrin də fəaliyyəti çox fəal olubdur, bələdiyyələr də bu proseslərdə fəal iştirak ediblər.

2024-cü il fevralın 14-də cənab Prezidentin burada andiçmə mərasimi ilə bağlı çıxışında da... Qeyd edim ki, ümumilikdə, ölkəmizdə 8 andiçmə mərasimi keçirilibdir. Onun 7-nin iştirakçısı olmuşam. 2 andiçmə mərasimi ilə bağlı fikrimi qeyd edəcəyəm. Biri 1993-cü ildə Ümummilli Liderin ölkənin dağıldığı, separatizmin baş qaldırdığı, respublikanın ağır vəziyyətində Prezident seçilib and içdiyi dövr, qarşıya qoyduğu vəzifələr və ölkənin bu vəziyyətdən necə çıxarılması ilə əlaqədar çıxışı idi. Digəri isə cənab Prezidentin sonuncu andiçmə mərasimində qarşıya qoyduğu vəzifələr idi ki, bütün sahələrlə yanaşı, orada

regional idarəetmə və yerli özünüidarəetmə ilə bağlı da fikirlərini səsləndirdi. Bu fikirlər hamı üçün bir örnək oldu.

Bələdiyyələrin fəaliyyətinə gəldikdə isə onların fəaliyyəti ilə bağlı müvafiq orqan ciddi şəkildə işlər aparır, seminarlar keçirir, daim onların təkmilləşdirilməsi, fəaliyyətlərini qanunvericiliyin tələblərinə uyğun şəkildə qurması, qeyri-qanuni yollardan çəkinməsi üçün tövsiyələr verir, nəzarət mexanizmini həyata keçirir və digər formada bunlar öz əksini tapır. Bizim bəzi həmkarlarımız məsələlər qaldırmışdılar. Azərbaycanda olan 4204 qəbiristanlığın artıq 3 mindən çoxu bələdiyyələrə təhvil verilibdir. 900 qəbiristanlıq qalır ki, bunlar da yaxın vaxtlarda bələdiyyələrə təhvil veriləcəkdir.

Bələdiyyə mülkiyyətinə aid olan xəritələrin 95 faizi, demək olar ki, hazırdır. Yaxın vaxtlarda bələdiyyə mülkiyyətinə daxil olan xəritələr bələdiyyələrə təqdim olunacaqdır. Eyni zamanda, bizim məsələlərimiz burada müzakirə olunan vaxt cənab Prezident çox gözəl iki qanun layihəsini, yəni bələdiyyələrin problemlərinin həlli ilə bağlı yeni qanun layihələrini qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə göndəribdir. Hörmətli Sahibə xanım da komitəyə təqdim edibdir. Biz komitədə onu müzakirə edəcəyik.

Burada deputatların həmişə qaldırdığı bir məsələ var idi: bələdiyyələrin sayı məsələsi. Bu qanun layihəsi bələdiyyələrin birləşməsi, fəaliyyəti, ayrılması və ləğv edilməsi, bələdiyyələrin statusu haqqındadır. Burada göstərilir ki, əhali sayı 3 mindən az olan bələdiyyələr birləşirlər. Yəni min evdən az olan bələdiyyələr birləşməlidir. Bu da bələdiyyələrin sosial-iqtisadi vəziyyətini kifayət qədər yaxşılaşdıracaq, eyni zamanda, onların fəaliyyət göstərməsinə də köməklik göstərəcək.

Həmçinin yaxşı hallardan biri də odur ki, bu vəzifə – bələdiyyələrin birləşməsi Azərbaycan Respublikasının Milli Məclisinə həvalə olunub. Bu, Milli Məclisdə müzakirə edilir, Milli Məclis baxır, qərar qəbul edir və artıq 3 mindən az əhalisi olan kəndlər birləşəcəklər və böyük bələdiyyələr yaranacaq. Bu da deputatlarımızın həmişə parlamentdə qaldırdığı bir çox məsələlərin həllinə kömək olacaq.

Ona görə də hərtərəfli şəkildə məruzə hazırlanıbdır. Deputat həmkarlarımdan da təvəqqe edirəm ki, buna səs versinlər və onu qəbul edək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Təklif var, müzakirələrdə 5 dəqiqəyə keçək. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sağ olun. Müzakirələrə keçirik. Çıxış etmək istəyənlərdən birincisi Fazil Mustafadır. Fazil müəllim, buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Təbii ki, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın bələdiyyələrin fəaliyyəti ilə bağlı məruzəsini mən normal qəbul edirəm. Hər il də biz bu məruzəni dinləyirik. Onlar əllərindən gələni edirlər, bələdiyyələrin fəaliyyəti ilə bağlı onun bütün aspektlərini göstərirlər. Amma bu, bələdiyyələrin fəaliyyətinə hansısa şəkildə təsiredici, onların inkişafına köməkedici bir nəticəni ortaya qoymur. Biz bunun üzərində indi niyə çox düşünməliyik?

Bu gün icra hakimiyyəti orqanlarının da səlahiyyətlərinin xeyli hissəsi əllərindən alınıbdır. Konkret olaraq onlar ancaq vətəndaşı qəbul edib yola salmaq funksiyasına sahibdirlər. Hər hansı bir ayrıca fondları və başqa imkanları da yoxdur ki, vətəndaşların şikayətlərini təmin edə biləcək

işlər görə bilsinlər. Qarşıdan da bələdiyyə seçkiləri gəlir. Ona görə indi daha aktualdır ki, bələdiyyənin fəaliyyətini canlandıraq. Çünki bələdiyyə olmasa, yenə də yerli problemlərin üst-üstə qalaqlanmasının şahidi olacağıq.

Hədsiz mərkəzləşmə bələdiyyələrin müəyyən dərəcədə öz funksiyasını həyata keçirməsinə kifayət qədər əngəl yaradır.

Bələdiyyələrin yaranmasının 25 ili tamam olur, amma real bir bələdiyyə funksiyasını həyata keçirən qurum göstərmək çox çətinləşir. Bu hesabat məruzəsində də göstərilir ki, 13 bələdiyyə gördüyü işlərlə bağlı bülleten hazırlayıb vətəndaşlara paylayıb, yaxud da bələdiyyələrə 12 min tövsiyə göndərilib. Konkret olaraq bələdiyyələrin hansı işi görmə səlahiyyətləri var, bu istiqamətdə danışılmır. Çünki bu səlahiyyətlər yoxdur. Bələdiyyənin olmasının nəyə faydası var, bunu düşünməliyik. Birinci, bələdiyyələrin xarici ölkələrdə gördüyünüz kimi, çox sayda sosial müəssisələri var, təsisləri var, orada da bir çox iş yerləri var və onlar sosial ehtiyacı olan vətəndaşların təminatı üçün xeyli işlər görə bilirlər.

Digər tərəfdən, bələdiyyələr yerli məsələlərdə vətəndaşa çevik xidmət göstərə bilirlər. Daha aylarla gözləmirlər ki, mərkəzdən qərar qəbul olunsun, hansı isə yol çəkilsin, hansı isə kommunal xidmətlər həyata keçirilsin. Bələdiyyələr kiçik və orta sahibkarlığın inkişafına ən çox dəstək verən qurumlardır və onların nəqliyyatın, kommunikasiyanın və turizmin inkişafında müstəsna rolları var. Halbuki bizdə nə turizmdə, nə nəqliyyatda, nə də tikintidə bələdiyyənin hansı isə bir rolunu görmək mümkün deyil. Biz bunu canlandırmalıyıq.

Burada dövlət büdcəsindən xərclənən, tutaq, 7-8 milyon maliyyə vəsaiti bələdiyyəyə verilir, amma bələdiyyə özü

canlı fəaliyyətə keçsə, heç dövlət büdcəsindən bu qədər vəsait almağa da ehtiyac olmaz. Özü hətta dövlətin bir sıra funksiyalarını üzərinə götürüb həll etmiş olar.

Vacib məsələlərdən biri, diqqət edirsinizsə, xarici ölkələrdə hər bir bələdiyyənin müxtəlif idman növləri üzrə komandaları var və bu komandalar ölkədə idmanın, sağlamlığın inkişafında böyük rol oynayırlar. İdman müəssisələri var və bu da populyar idman növü ilə yanaşı, qeyri-populyar idman növlərinin inkişafına da kömək göstərir. Baxın, dünən "Qarabağ"ın qələbəsini qeyd etdik. Amma biz "Qarabağ"dan başqa digər klubumuza kömək edə biləcək imkana sahib deyilik, Avropaya çıxara bilmirik.

Dünənki qələbə, həqiqətən, hamımızı qürurlandırdı. Mən hesab edirəm ki, bu qələbəyə görə də biz müəyyən addımlar atmalıyıq. Xaricdə var, Şenol Günəşin, Fatih Terimin adını idman meydançalarına veriblər. Mən təklif edərdim ki, "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanovun adı Ağdamda tikiləcək futbol meydançasına verilsin. Adam daha gedib dünya çempionu olası deyil ki. 10 ildir, Avropa liqasında qruplara qatılan bir komanda yaradıb ölkənin nüfuzunu təmsil edir. Əgər bizdə bələdiyyə olsa, təsəvvür edin ki, yerlərdə həndbol üzrə, basketbol üzrə, futbol üzrə çox sayda komandalarımız formalaşar və bu da, bütövlükdə, Azərbaycanda idmanın inkişafına xidmət edər.

Bələdiyyə teatrı. Bizdə bələdiyyə teatrı var. Ona hansı bələdiyyə pul ödəyir? Bələdiyyə onu saxlaya bilmir ki. Ona görə də rayonlarda teatrın inkişafı üçün də bələdiyyənin inkişafına ehtiyac var. Bələdiyyənin pulu olmalıdır ki, bu cür mədəni sistemləri inkişaf etdirə bilsin. Bu baxımdan, məncə, builki seçkilərə ciddi yanaşmalıyıq. Bələdiyyələrə geniş səlahiyyətlər verməliyik. Qanunvericilik təşəbbüsü ilə qəbiristanlıqlar verilib, Siyavuş müəllim

qeyd etdi, 4000 qəbiristanlıq. Heç bələdiyyələr onu götürmək istəmirlər, pulları yoxdur ora xərcləsinlər. Ona görə də bu məsələlər ətrafında düşünməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov.** Çox sağ olun, Sahibə xanım. Vilayət müəllim burada bələdiyyələrin 2023-cü ildə gördüyü işlərlə əlaqədar geniş məlumat verdi. Özü də qeyd etdi ki, bu il Azərbaycanda bələdiyyə institutunun formalaşmasının 25-ci ildönümü qeyd ediləcək. Bu 25 il ərzində bələdiyyə institutu Azərbaycanda faktiki olaraq müəyyən qədər işlər görsə də, amma mən hesab edirəm ki, Milli Məclisdə bələdiyyə institutunun formalaşması üçün müəyyən qanunlara dəyişiklik edilməsi həmişə önəmli məsələlərdən biri olmuşdur. Xüsusi ilə 2023-cü ildə biz bələdiyyə institutunun formalaşması məqsədi ilə bir sıra qanunlarda dəyişiklik etmişik. O cümlədən bələdiyyə torpaqlarının hərrac və ya müsabiqə keçirmədən birbaşa bələdiyyə qərarı ilə bərpa olunan enerji mənbələrinin istifadəsinə verilməsi, o cümlədən bələdiyyələrin torpaq sahələrində yerləşən tikintilərin istismarına bələdiyyələr tərəfindən razılığın alınması və digər məsələlər Milli Məclisdə qəbul olunmuşdur.

Hesabatda bələdiyyə torpaqlarının satılması barədə aktların hüquqi ekspertizadan keçirilməsi məsələsi gündəmdə olmuşdur. Burada qeyd edildiyi kimi, 2023-cü ildə də inzibati nəzarət qaydasında 100 mindən artıq bələdiyyə aktı hüquqi ekspertizadan keçirilmiş, mən deyərdim ki, 3600 aktın tələblərə zidd olduğu müəyyən edilmişdir. Ümumiyyətlə, bələdiyyə vəsaitlərinin artırılması məsələsi həmişə Milli Məclisin gündəmində olmuşdur. Amma baxırıq ki, biz 2023-cü ildə dövlət büdcəsindən 8 milyon manat vəsait ayırsaq da, sonradan bələdiyyələrin özlərinin

yerli torpaq vergisi, əmlak vergisi və digər vergilər hesabına gəlirləri xeyli artmış, demək olar ki, 47 milyon manata yaxın vəsait əmələ gəlmişdir.

Bütün bunlarla bərabər mən bələdiyyələrlə əlaqədar bir neçə məsələyə toxunmaq istəyirəm. Birincisi, burada Siyavuş müəllim dedi, yeni qanunun hazırlanması və Milli Məclisə verilməsi. Bu, çox vacibdir. Mən belə hesab edirəm ki, ümumiyyətlə, bələdiyyələrin formalaşmasında vəsaitlərlə bərabər digər məsələlər də öz əksini tapmalıdır.

Bir sıra məsələlər var ki, mən onları Vilayət müəllimin nəzərinə çatdırmaq istərdim. Birincisi, yerli əhalinin tələbatını nəzərə alaraq ümumi istifadə üçün örüş sahələrinin ayrılması məsələsi bu gün çox ciddi bir problem olaraq qalmaqdadır. Çünki Azərbaycan hökumətinin də qərarı var ki, örüş sahələri veriləndə ilk növbədə yerli əhalinin tələbatı nəzərə alınmalıdır. Çox təəssüf ki, Quba–Xaçmaz zonasında bu nəzərə alınmır və örüş sahələri, əsasən, Bakıdan və digər bölgədən olan əhaliyə verilir. Örüş sahələri ilk növbədə yerli əhalinin istifadəsi üçün ayrılmalıdır.

İkinci bir məsələ icarəyə verilmiş torpaqlarla əlaqədardır. Bizim Quba–Xaçmaz zonasında yüz hektarlarca icarəyə verilmiş torpaqlar var ki, bu günə qədər istifadə olunmur. Birincisi, o torpaqların qiymətləndirilməsində çox ciddi problem var. Yəni onlar bazar qiymətinə uyğun olaraq qiymətləndirilməlidir ki, lazımi səviyyədə vergi versin. Amma görürük ki, icarə müqavilələrində kifayət qədər debitor borclar yaranır və həmin borclar vaxtında ödənilmir. Böyük borc vəsaitləri var.

Üçüncü bir məsələ şəhid ailələri və qazilərlə əlaqədar məsələlərin bələdiyyələrin diqqət mərkəzində olmasıdır. Biz rayonda əhali ilə  mütəmadi görüşlər keçiririk. Cənab Prezident tərəfindən yerli icra hakimiyyətləri orqanlarına göstəriş

verilib ki, şəhid ailələrinə və qazilərə həmişə diqqət göstərsinlər. Amma müəyyən bələdiyyələr var ki, mən deyərdim, öz büdcələri hesabına bu məsələləri həll etmək istəmirlər. Kifayət qədər büdcəsi olan bələdiyyələr var.

Hesabatdan görünür, bələdiyyələrin daha çox diqqət yetirdiyi məsələ torpaq sahəsi məsələsidir. Mən baxıram, hesabatda da əsas məsələ torpaqların satılması, hərraca verilməsi və sairdir. Bələdiyyələrin yalnız torpaqla deyil, digər sosial sahələrlə də məşğul olmasına böyük ehtiyac var. Hələ mən bir dəfə də hesabatda görmədim ki, hansı isə bələdiyyə kəndə su çəkdirsin, məktəb tikdirsin, uşaq bağçası tikdirsin və sair.

Bələdiyyələrin statusunda bu dəyişikliklər ediləcəksə, onların maliyyə məsələlərində müəyyən artımlar varsa, bələdiyyələr yalnız torpaqla deyil, digər sosial məsələlər ilə də məşğul olmalıdırlar.

Ümumi götürəndə mən hesabatı müsbət qiymətləndirirəm, səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Buyurun, Əli müəllim.

**Ə.Məsimli**. Çox sağ olun, hörmətli sədr. Vilayət müəllim 2023-cü ildə ədliyyə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə görülmüş işlər barədə kifayət qədər məlumat verdi. Müraciətlərə baxılması, bələdiyyələrin fəaliyyəti ilə bağlı metodoloji iş, maarifləndirmə, bələdiyyələrin maliyyə vəziyyətinin yaxşılaşdırılması, bələdiyyə torpaqlarının qanuni şəkildə istifadə olunması və digər istiqamətlərdə lazımi məlumatlar verdi. Bunu müsbət qiymətləndiririk və bu məruzəni məqbul hesab edirik.

Eyni zamanda, bələdiyyələrin yaranmasından artıq 25 il keçib və 25 il kifayət qədər böyük bir müddətdir. Hörmətli sədr, iki il bundan qabaq mənim Şəki kəndlərində bələdiy-

yə sədrləri ilə olan görüşümdə fikirləşmək üçün kifayət qədər zəngin material verən məqamlar oldu, onları nəzərə çatdırmaq istəyərdim.

Birinci, bələdiyyələr haqqında danışanda həmişə mənfi notda danışırıq. Amma bələdiyyələri də dinləmək lazımdır ki, bələdiyyə sədrləri nələr düşünür, bələdiyyələrin fəaliyyətinin səmərəliliyini artırmaq istiqamətində hansı optimal yollardan istifadə etmək mümkündür. Mənə elə gəlir ki, yerli problemlərə onlar daha yaxından bələd olduqlarına görə, onların da dinlənilməsinə ehtiyac var. Bələdiyyələr həmin biliklərdən istifadə edərək yerlərdə, xüsusən kənd yerlərində su təchizatının yaxşılaşdırılması, qəzalı vəziyyətdə olan məktəblərin yenidən qurulması və sair istiqamətlərdə ən azından çox səmərəli təkliflər verə bilərlər və dövlətlə birgə bu problemlərin həllini xeyli dərəcə sürətləndirmiş olarlar.

Eyni zamanda, həmin açıq söhbətlər göstərdi ki, Azərbaycanda bələdiyyələrin problemləri heç də Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin funksiyaları çərçivəsinə sığmır. Bələdiyyə institutunun əsas problemi bələdiyyələrin Konstitusiyamızda müəyyən olunan yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll etmək kimi vəzifənin gerçəkləşməsinə yetərincə nail ola bilməməsidir. Ona görə də biz nəzərə almalıyıq ki, bələdiyyələr ilə bağlı 20-dən artıq qanun qəbul edilib və həmin qanunların sistemləşdirilmiş şəkildə yeni bir bələdiyyə məcəlləsi halına gətirilməsinə ehtiyac var.

İkinci məsələ, artıq 25 ilin müsbət və mənfi təcrübəsindən çıxış edərək bələdiyyələrin məhz Konstitusiyada nəzərdə tutulan istiqamətdə inkişafı üçün xüsusi bir proqramın və islahatlar paketinin hazırlanıb həyata keçirilməsinə ehtiyac var.

Bələdiyyələrin problemlərindən biri də bilavasitə onun asılılıq məsələsidir. Hesab edirik ki, bələdiyyələrin yerli icra orqanlarından asılılığı məsələsi həll olunmasa, bundan sonrakı 25 ildə də onların səmərəli fəaliyyətindən danışmaq mümkün olmayacaq. Ona görə də bu məsələni də mütləq həll etmək lazımdır.

Bələdiyyələrin maliyyə məsələsində son illərdə irəliləyiş var. Qabaqlar 30-35 milyon manat idi, indi 47 milyon manatın üzərindədir. Amma nəzərə alaq, həmin o 47 milyon manatlıq vəsaitin 55 faizi əməkhaqqına, 25 faizi mal və xidmətlərə, yerdə qalan 20 faizi, 10 milyona qədər olan hissəsi isə yerli problemlərin həllinə yönəlir ki, Azərbaycan kimi bir ölkədə 10 milyon manata yerli problemləri həll etmək mümkün deyil. Hörmətli sədr, lap tutaq ki, onun vəsaiti çox oldu. Bələdiyyələrin əksəriyyətinin 5 illik və illərə bölünmüş proqramı olmadığına görə, onlar nəyi, necə, hansı istiqamətdə təkmilləşdirməli suallarına cavab verə bilməyəcəklər. Ona görə bələdiyyələrin özlərinin də proqramının olması çox vacibdir.

Hesab edirəm ki, son illərdə gənclərin, xanımların bələdiyyəyə cəlb edilməsi istiqamətində atılan addımlar çox vacibdir. Amma yerli kadr potensialından daha səmərəli istifadə edilməsi istiqamətində hələ ehtiyatlar çoxdur və bələdiyyələrə yerli, iş bilən kadrların cəlb edilməsi işində də irəliləyişə doğru addım atmaq lazımdır.

Bələdiyyələrdə son illərdə mütləq zəruri olan məsələlərdən biri şəhid ailələrinin, müharibə iştirakçılarının müraciətlərinin təmin olunmasına diqqətin artırılmasıdır. Hesab edirəm ki, mənim dediyim həmin proqram çərçivəsində bu işlərin görülməsi bələdiyyələrin qısa müddətdə Konstitusiyada nəzərdə tutulmuş məcrada öz fəaliyyətini səmərəli qurmasına kömək, dəstək vermiş olar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də hörmətli Vilayət müəllimin təqdimatını dəstəkləyirəm və təbii ki, hesabata səs verəcəyəm. Bununla belə, eyni zamanda, bir sıra konseptual məsələləri də qeyd etmək istərdim.

Bu konseptual məsələlərdən biri məhz bələdiyyələrin maliyyə dayanıqlığı ilə bağlıdır. Hesabatda da qeyd olunduğu kimi, bələdiyyələrin maliyyə vəsaitlərinin həcmində artımlar olsa da, amma təbii ki, hələlik bələdiyyələr maliyyə dayanıqlığını formalaşdıra bilməyiblər. 2024-cü ilin dövlət büdcəsindən bələdiyyələrə 12,5 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu, əvvəlki illə müqayisədə 1,1 milyon manat və ya 9,7 faiz çoxdur. Təbii, artımların olması müsbət məqamdır. Amma, eyni zamanda, nəzərə alsaq ki, ölkədə fəaliyyət göstərən bələdiyyələrin sayı təxminən 1600-dür, – ötən seçkidə 1606 bələdiyyə seçkilərə cəlb olunmuşdu, – bu o deməkdir ki, dövlət büdcəsindən hər bələdiyyəyə orta hesabla ayrılan illik vəsaitin həcmi 7780 manatdır. Bu, aylıq olaraq 648 manat deməkdir. Yəni bu, ondan xəbər verir ki, dövlət büdcəsi orta hesabla hər bələdiyyəyə aylıq olaraq 648 manat vəsait ayırır. Təbii ki, bu vəsait bələdiyyə üçün, bələdiyyənin qarşılaşdığı problemlərin və ya infrastrukturla bağlı məsələlərin həll edilməsi baxımından yetərli deyil.

Eyni zamanda, hesabatda da qeyd olunduğu kimi, bələdiyyələrin ümumi gəlirləri ötən il 47 milyon 400 min manat olub. Bu isə o deməkdir ki, bələdiyyənin orta hesabla illik gəliri 29500 manatdır. Biz aylıq gəlirlərə baxsaq, bələdiyyənin aylıq gəliri 2458 manatdır. Ümumi gəlirlər kontekstindən də bələdiyyələrin aylıq gəlirləri yüksək deyil. Bu isə ondan xəbər verir ki, bələdiyyələrin

maliyyə dayanıqlığının gücləndirilməsinə ehtiyac var.

Hörmətli Fazil müəllim bələdiyyələrin səlahiyyətləri ilə bağlı məsələləri qeyd etdi, mən tamamilə razıyam. Amma, eyni zamanda, düşünürəm ki, bələdiyyələrin səlahiyyətləri ilə yanaşı, həm də potensialının artırılması çox vacibdir. Təbii ki, səlahiyyətinin genişləndirilməsi və xüsusən də maliyyə mənbələrinin diversifikasiyası, maliyyə dayanıqlığının gücləndirilməsi olduqca vacibdir. Amma, eyni zamanda, bələdiyyələr üçün bələdiyyələrin potensialını artıracaq proqramların həyata keçirilməsinə ehtiyac var. Çünki mövcud potensial çərçivəsində səlahiyyətin genişləndirilməsi heç də bütün bələdiyyələr üçün yeni imkanlar yaratmayacaq. Bu kontekstdən, təbii ki, potensialın artırılması və buna uyğun olaraq, səlahiyyətlərin genişləndirilməsi daha məqsədəuyğun olardı. Bu, eyni zamanda, rayonlarda, şəhər və kəndlərdə bələdiyyələrin yerli səviyyədə olan qayğıları qarşılaması baxımından da olduqca vacibdir. Çünki yerli səviyyədə infrastrukturla və digər məsələlərlə bağlı kifayət qədər qayğılar var və məhz bu qayğıların qarşılanmasında bələdiyyələrin rolunun artırılmasına ehtiyac var. Bu kontekstdə, təbii ki, bələdiyyələrin maliyyə imkanlarının genişləndirilməsi və xüsusən də maliyyə dayanıqlığının artırılması və yerli səviyyədə gəlirinin şaxələndirilməsi olduqca vacibdir.

Eyni zamanda, bələdiyyələr üçün bu gün qanunvericilikdə kifayət qədər imkanlar var. O cümlədən bələdiyyə müəssisələrinin yaradılması. Bələdiyyə müəssisələri bu gün qardaş Türkiyə daxil olmaqla əksər ölkələrdə tətbiq olunur. Çox təəssüf ki, bələdiyyələr bu imkanlardan istifadə etmir. Amma, bütövlükdə, biz son illər institusional olaraq bələdiyyə institutunun formalaşmasını və gücləndirilməsini müşahidə edirik və əminəm ki, yeni dövrün yeni

hədəfləri həm də daha güclü bələdiyyə institutlarının yaradılmasına xidmət edəcək. Bütövlükdə, hesabatı dəstəkləyirəm. Hörmətli həmkarlarımızı hesabata səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Təklif var, səsə qoyaq. Hamı razıdır? Təkid edən yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda mən məsələni səsə qoyuram. Buyurun. Deyəsən, səsvermədə problem var. Xahiş edirəm, buyurun, yenidən səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 80 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 1 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi. Vilayət müəllim, Sizə və əməkdaşlarınıza təşəkkür edirik, yeni uğurlar arzulayırıq.

Hörmətli həmkarlar, biz işimizə davam edirik.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sağ olun, siz gedə bilərsiniz.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Qeyd edim ki, gündəliyin növbəti 5 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Onu da deyim ki, növbəti iki məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, məzmun və mahiyyətcə bir-birinə yaxındır. Gündəliyin 3-cü məsələsi "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə, gündəliyin 4-cü məsələsi isə Mülki Proses-

sual Məcəllədə, digər iki məcəllədə və iki qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Hörmətli həmkarlar, həmişə olduğu kimi, mən təklif edirəm ki, əvvəlcə biz qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə digər prosedurlara keçək.

3-cü məsələyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Bu qanun layihəsinə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Hicran xanım Hüseynovaya söz verirəm. Hicran xanım, mən Sizdən xahiş edəcəyəm, Siz bu məsələ barəsində məlumat verəsiniz, həm də 4-cü məsələyə dair komitənin rəyini bildirəsiniz. Çünki 4-cü məsələyə də sizin komitədə baxılıb. Əslində, biz keçən dəfə də belə etmişdik. Buyurun.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. İki qanunun ikisinə də komitəmizdə baxılıb. Üçüncü oxunuşdur. Heç bir təklif, rəy yoxdur. Səsə qoymağı xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Hörmətli həmkarlar, 3-cü məsələyə daha 2 komitədə də baxılıb. İnsan hüquqları komitəsinin rəyini təqdim etmək üçün mən komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov,** *Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli sədr, komitə lehinədir. Səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Bəhruz müəllim. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Ona görə də komitənin sədri hörmətli Əli müəllim, xahiş edirəm, komitənin rəyini bildirin.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputatlar. Bu məsələdə "Təhsil haqqında" Qanundan başqa digər layihələrlə bağlı bizim komitənin rəyi müsbət olub. Sadəcə, müzakirə zamanı həmkarımız Aydın müəllimin layihədəki anlayışlarla bağlı bir neçə fikri olmuşdur. "Zorakılığın qurbanı" anlayışı, o cümlədən "tələb olmadan vəkil yardımı" və sair. Komitənin mövqeyi yazılı formada Aydın müəllimin diqqətinə çatdırılmışdır və qarşılıqlı anlayış şəraitində qarşılanmışdır. Ona görə artıq heç bir problem yoxdur. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Onda mən Sizdən xahiş edirəm, 4-cü məsələyə də sizin komitə baxıb, elə indi məlumat verin.

**Ə.Hüseynli.** Eyni ilə də gündəliyin 4-cü məsələsində təqdim olunmuş layihələr, onlar "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun tətbiqi ilə bağlı daha çox uyğunlaşdırma xarakterli layihələrdir. Komitəmizin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, 4-cü məsələyə 2 komitədə də baxıb. Hicran xanım artıq öz rəyini bildirdi. İkinci komitə isə, Bəxtiyar müəllim, sizin komitənizdir, Elm və təhsil komitəsi. Buyurun, komitənin rəyini bildirin.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli sədr, hörmətli deputatlar. Komitə qanun layihəsinin lehinədir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəxtiyar müəllim. Mən qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, indi "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə mən Mülki Prosessual Məcəllədə, digər 2 məcəllədə və 2 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun, bu bizim 4-cü məsələmizdir.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. Bu, 5-ci məsələdir. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Mən indi sözü hörmətli Ziyafət müəllimə vermək istəyirəm. Ziyafət müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, məlumat verin.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Birinci və ikinci oxunuşlardan sonra qanun layihəsi ilə bağlı təkliflər daxil olmayıb. Ona görə səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ, "Avtomobil yolları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Mən komitə sədrinin müavini hörmətli Əli Məsimlidən xahiş edəcəyəm, komitənin rəyini bildirsin. Əli müəllim, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. "Avtomobil yolları haqqında" Qanunda dəyişiklik birinci və ikinci oxunuş zamanı kifayət qədər geniş, əhatəli təqdim olunub. Mövzu ilə bağlı deyil, onun ətrafında, aktuallığını nəzərə alaraq,

bir sıra çıxışlar olub. Çıxış edənlərə təşəkkürümüzü bildiririk. Amma bilavasitə dəyişikliklə bağlı komitəyə heç bir müraciət daxil olmadığına görə, bu sənədin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə "Qida təhlükəsizliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə keçirik. Bu bizim 7-ci məsələmizdir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir müəllim Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, ikinci oxunuşdan sonra qanunda edilmiş dəyişikliklər barədə komitəyə elə bir rəy, təklif qəbul olunmamışdır. Ona görə səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
| --- | --- |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ, "İstehsalat və məişət tullantıları haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2023-cü il 24 iyul tarixli Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Hörmətli həmkarlar, adından da göründüyü kimi, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Ona görə də müvafiq Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Qanuna Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**S.Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Təşəkkür edirəm, dəyərli Sahibə xanım. Qanun layihəsi "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2023-cü il 24 iyul tarixli, 928 nömrəli Qanununun icrası ilə əlaqədar hazırlanıb. 12 qanunda uyğunlaşdırma xarakterli dəyişikliklərin olması nəzərdə tutulub. Bu dəyişikliklər, əsasən, "istehsalat və məişət tullantıları" sözlərinin "tullantılar" sözü ilə əvəz olunmasını özündə ehtiva edir. Qanunun adı da də-

yişərək "Tullantılar haqqında" Qanun adlanır. Bu da onunla əlaqədardır ki, biz əvvəlcə nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı qanun qəbul etdik. Bu da qanunun tənzimləmə sahəsini genişləndirir. Ona görə də "istehsalat və məişət tullantıları haqqında" sözü "tullantılar haqqında" sözü ilə əvəz olunur. Xahiş edirəm, dəstəkləyəsiniz.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə 3 komitədə baxılıb. Aqrar siyasət, Hüquq siyasəti və dövlət quruculuğu və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrində. Tahir müəllim, mən Sizə söz vermək istəyirəm, birinci, Aqrar siyasət komitəsində baxılıb. Buyurun.

**T.Rzayev.** Hörmətli sədr, komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Əli müəllim, sizin komitədə də baxılıb. Buyurun.

**Ə.Hüseynli.** Təbii ki, xanım sədr, rəyimiz müsbətdir. Sırf uyğunlaşma xarakterli layihədir. Təşəkkür edirəm.

**Sədrlik edən.** İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi. Əli müəllim, komitənin rəyini Siz bildirəcəksiniz . Buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Müzakirəyə keçirik. Razi Nurullayev. Razi müəllim, buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli deputatlar, ölkəmizin şəhər və qəsəbələrində tullantıların toplanması, idarə olunması və basdırılması sahəsində vəziyyət acınacaqlıdır. Hansı rayona, şəhərə getmişəmsə, vəziyyətin həddindən artıq pis olduğuna şahidlik etmişəm. Bəzi yerlərdə zibilliklər çay və göl kənarlarında yığılıb birbaşa sulara və çaylara axıdılır.

Bütün dünyada zibil də biznesdir və ondan pul qazanan sahibkar var. Bu məsələdə sahibkarları niyə maraqlandıra bilmirik? Maraq göstərən xarici sərmayəçilər yoxdurmu? Bu gün ən azından bölgələr üzrə 5-6 tullantı zavodlarının tikintisinə ehtiyac var. Hər il qızmar yay aylarında 100 minlərcə insanın həyatı təhlükəyə girir. Elə biri də mənim deputatı olduğum İmişli rayonu. Üfunət iyindən, çirkabdan, natəmizlikdən 100 minlərcə insan əziyyət çəkir.

Qanunları yaxşı qəbul edirik, amma konkret nəticələr zəifdir. Əslində, qanunvericilik yaxşıdır. Vacib olan əməli işlərin görülməsidir. Təbii ki, tullantı zavodlarının tikilməsi böyük sərmayələr tələb edir. Əgər özəl sektoru, xarici sərmayəçiləri cəlb edə bilmiriksə, bir neçə zavodun dövlət büdcəsi hesabına maliyyələşdirilməsinə keçməliyik. Yaxud özəl sektor və dövlət əməkdaşlığı çərçivəsində bu işlərin öhdəsindən gəlmək olar. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, bizim 3 məsələmiz qalır. Bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihəsidir.

Həmişə olduğu kimi, mən xatırlatmaq istəyirəm ki, birinci oxunuşun tələblərini nəzərə alasınız. Gündəliyin 9-cu məsələsi. Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Əli müəllim, mən Sizə söz verirəm. Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu layihənin məqsədi çox aydındır. Məqsəd ondan ibarətdir ki, cinayət təqibi gedişində xüsusi müsadirənin təmin edilməsi üçün görülən tədbirlərin səmərəliliyi daha da artırılsın.

İkincisi, həbs qoyulmuş əmlakın qorunması, onun dəyərinin itirilməməsi üçün tədbirlər görmək və xüsusi mexanizmlər yaratmaqdır. Ona görə də qanunda qeyd olunub ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum. Yəni gələcəkdə cənab Prezidentin qanunun qüvvəyə minməsi ilə bağlı fərmanında qeyd olunacaq ki, məhz hansı orqan bununla məşğul olacaq. Təşəkkür edirəm,

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyənlər var. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli deputatlar, ölkəmizdə üzərinə həbs qoyulmuş əmlakların dəyərini itirməsinin masştabı çox böyükdür. Elə sahibkarlar və vətəndaşlar var ki, əmlakına, mülkünə, biznesinə həbs qoyulub. Həbs qoyulan zaman dəyəri, deyək ki, 10 milyon olub, bir neçə aydan və ildən sonra dönüb olub qəpik-quruş. Bir tərəfdən, zərərçəkən dövlət və vətəndaşlar qarşısında olan öhdəliyini yerinə yetirmək üçün vəsaitə malik olmayıb, digər tərəfdən isə onun işləyən əmlakı, ya da mülkü həbsə qoyulub və vəziyyəti daha da çətinləşib. Bunun da nəticəsində öhdəliklərini yerinə yetirə bilməyib.

Bu düzəliş, əslində, gecikmiş düzəlişdir. Amma buna

da çox şükür və çox sevinirəm. Cinayət-Prosessual Məcəlləsində təklif edilən dəyişiklikləri dəstəkləyirəm və lehinə səs verəcəyəm. Bu dəyişikliklər bu günə qədər qəbul etdiyimiz qanunlar və dəyişikliklər içərisində ən önəmlilərindən biridir. Zəhməti keçən hər kəsə təşəkkürümü bildirirəm. Çox sağ olun, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun. Məlahət İbrahimqızı. Məlahət xanım, buyurun.

**M.İbrahimqızı.** Çox sağ olun, xanım sədr. Mən üzr istəyirəm, elə başa düşdüm, 9-cu, 10-cu, 11-ci məsələlər, üçü də bir yerdə müzakirə olunur. Mənim sualım və kiçik bir şərhim 10-cu məsələ ilə bağlıdır. Yanılmıramsa, üçü də birdirsə, mən indi də deyə bilərəm.

**Sədrlik edən.** Çox sağ olun. Məlahət xanım, bir az gözləyin. İndi 10-cu məsələyə keçəcəyik. Onda deyərsiniz. Mən, sadəcə, dedim ki, 3 məsələnin üçü də birinci oxunuşdadır. Bu mənada onların adını bir yerdə çəkdim.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə biz 10-cu məsələyə keçirik. Bu, İnzibati Xətalar

Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, layihə "Fövqəladə vəziyyət haqqında" Qanunda dəyişiklik edilməsi barədə bizim təqribən 1 il öncə qəbul etdiyimiz qanunun icrası ilə əlaqədar hazırlanmışdır. Həmin qanunun icrası ilə əlaqədar möhtərəm cənab Prezidentin eyni məktubu ilə Milli Məclisə daha bir qanun layihəsi təqdim olunmuşdur. Amma o layihə uyğunlaşdırma xarakteri daşıdığından, bir oxunuşda qəbul edilməlidir. Ona görə də indi birinci oxunuşda müzakirəyə təqdim edilən bu qanun layihəsinin üçüncü oxunuşu ilə eyni vaxtda həmin qanun layihəsi də bir oxunuşda müzakirəyə çıxarılacaq.

Hörmətli həmkarlar, qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Kamal Cəfərova söz vermək istəyirəm. Kamal müəllim, buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Əziz həmkarlar, xatırlayırsınızsa, ötən il biz "Fövqəladə vəziyyət haqqında" Qanunda dəyişiklik edərək, fövqəladə vəziyyətin tətbiq edilməsinə əsas hesab edilməyən sosial xarakterli "fövqəladə mühit" anlayışını daxil etdik və qanunda bununla əlaqədar yeni hüquqi normalar müəyyən etdik.

Bu gün isə həmin qanuna etdiyimiz dəyişikliyə uyğunlaşdırma xarakterli bir sıra dəyişikliklər təklif edilir. İnzibati Xətalar Məcəlləsinə sosial xarakterli fövqəladə mühit zamanı müəyyən edilmiş davranışın pozulmasına görə yeni inzibati xəta təklif edilir. Qanun layihəsində inzibati məsuliyyətin detalları ilə tanışsınız. Bu inzibati xətalara dair işlərə rayon, şəhər məhkəmələri tərəfindən baxılması təklif edilir.

Eyni zamanda, layihədə fövqəladə vəziyyət rejiminin tələblərinin pozulmasına və dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejiminin tələblərinin pozulmasına görə inzibati tənbehlərin sərtləşdirilməsi təklif edilir.

Qeyd olunanları nəzərə alaraq, qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Yazılanlar var. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar, media nümayəndələri. İlk öncə, mən 517.0.13-cü və 517-1.1-ci maddələrdə cərimələrin məbləğinin aşağı həddinin təqribən 4 dəfə artırılması ilə bağlı öz fikrimi söyləmək istəyirəm.

Hörmətli həmkarlar, inzibati tənbehin məqsədləri ilə cəzanın anlayışı və məqsədləri tamam fərqlidir. İnzibati Xətalar Məcəlləsinin 21-ci maddəsində qeyd olunur ki, “inzibati tənbeh məsuliyyət tədbiridir və inzibati xəta törədən şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə həm inzibati xəta törətmiş şəxs, həm də başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq məqsədi daşıyır”.

Cinayət Məcəlləsinin 41-ci maddəsində isə cəzanın anlayışı  və məqsədi verilir. Orada qeyd olunur ki, “cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur və həmin şəxs barəsində bu məcəllə ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir”. Yəni inzibati tənbehdə məqsəd tərbiyələndirmədir, cəzanın məqsədi isə cinayət törətmiş şəxs üçün məhrumiyyətlərin yaradılmasıdır.

İndi mən sual verirəm. Ölkədə minimum əməkhaqqı 345 manatdır. 345 manat olan ölkədə cəzanın məbləği birdən-birə 40 manatdan 150 manata, yaxud 50 manatdan 200 manata qaldırılırsa, burada hansı tərbiyələndirmədən söhbət gedir? Bu, ailə üçün birbaşa ciddi məhrumiyyətlər yaradır. Tərbiyələndirmə o deməkdir ki, burada daha çox ictimai məzənnə, ictimai qınaq önə çəkilir. Yəni bir adam bir inzibati hüquqpozma törədir, ona cərimə tətbiq olunur ki, bax, sən qaydanı pozdun, ona görə də dövlət tərəfindən cərimə olunursan.

İnzibati tənbehdə məqsəd, yenə deyirəm, bu, qanunun tələbidir, mənim dediyim deyil, yəni məqsəd şəxsi tərbiyələndirməkdədir. Qanunda da belə yazılıb. Bunun üçün məhrumiyyətlər yaratmaq deyil. Məhrumiyyət yaratmaq yalnız cinayət əməlinə görədir. Ona görə də inzibati hüquqpozmalara görə cərimələrin bu qədər artırılması doğru deyil. Əgər şəxs, doğrudan da, nəticə çıxarmırsa, il ərzində təkrar törədirsə, onda qanunvericiliyə dəyişiklik edək, həmin şəxs barəsində cinayət məsuliyyəti təyin edək. Amma bu formada mən bunu düzgün hesab etmirəm.

Hörmətli sədr, bir də qayıtmaq istəyirəm, bu sosial xarakterli fövqəladə mühit rejimi ilə bağlı. O zaman xatırlayırsınızsa, bu müddəa qanuna daxil ediləndə biz burada məsələ qaldırdıq ki, bu, Konstitusiya ilə ziddiyyət təşkil edir. Amma hörmətli Ziyafət müəllim dedi ki, yəni qanunu təqdim edən şəxs yox...

Həm də qanunun 2-2.2-ci maddəsində qeyd olunur ki, “sosial xarakterli fövqəladə mühit rejimi insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi məhdudlaşdırılmadan belə fövqəladə mühitin aradan qaldırılması ilə bağlı dövlət orqanları (qurumları) tərəfindən təxirəsalınmadan və qarşılıqlı əlaqəli şəkildə tədbirlərin həyata

keçirilməsini təmin edən xüsusi hüquqi rejimdir”.

Əgər insanların hüquq və azadlıqları məhdudlaşdırılmırsa, belə olduğu təqdirdə biz onların üzərinə hansısa vəzifələrin həyata keçirilməsini necə qoya bilərik və buna görə də inzibati tənbeh tədbiri tətbiq eləyə bilərik. Burada da kifayət qədər yüksək cərimələr nəzərdə tutulur. Fiziki şəxslər üçün 100 manatdan 200 manata qədər, vəzifəli şəxslər üçün 300 manatdan 600 manata qədər, hüquqi şəxslər üçün isə 1000 manatdan, 1500 manata qədər. Mən indi bax, burada bir daha təkrar soruşmaq istəyirəm. “Fövqəladə mühit rejimi” deyilən bir anlayış gətirmişik. Bu zaman insan hüquq və azadlıqları məhdudlaşdırılır və fövqəladə vəziyyət tətbiq olunanda biz bilirik ki, buna parlamentin icazəsi lazımdır. Amma burada parlamentin icazəsi də tələb olunmur. Müvafiq icra hakimiyyəti orqanı, yəni bunu tətbiq eləyə bilir. Belə olduğu halda, bu, insan hüquq və azadlıqlarının məhdudlaşdırılması deyilmi? Məsələn, insan hüquq və azadlıqları məhdudlaşdırılmırsa, o fövqəladə mühit rejimi tətbiq olunanda kütləvi yığıncaqlar, yürüşlər, nümayişlər, başqa tədbirlər...

**Sədrlik edən.** Sağ olun. Məlahət İbrahimqızı. Məlahət xanım, buyurun.

**M.İbrahimqızı**. Çox sağ olun, xanım sədr. Bir daha təşəkkür edirəm. Mən, sözsüz ki, bu gün bizim müzakirəmizə təqdim olunan İnzibati Xətalar Məcəlləsində olan dəyişikliklərə səs verəcəyəm. Həqiqətən də, çox önəmli dəyişiklikdir və bugünkü gün üçün çox aktual məsələdir. Amma mənim həm Əli Hüseynlidən, həm də rəhbərlik etdiyi komitə üzvlərindən xahişim nədən ibarətdir? Bu, əslində, mənim xahişim deyil, bütövlükdə, respublikada təcili və təxirəsalınmaz tibbi yardım idarələrinin bütün əməkdaşlarının və rəhbərliyinin xahişidir.

Ölkəmizdə, bildiyimiz kimi, səhiyyə sahəsində möhtərəm Prezidentimizin rəhbərliyi ilə çox uğurlu islahatlar həyata keçirilir. Bu, möhtərəm Birinci vitse-prezidentimizin humanitar sahədə, eləcə də tibb sahəsində hər dəqiqə gündəmində olan məsələlərdir. Məsələ nədən ibarətdir? Deməli, hədsiz dərəcədə yalançı çağırışlar olur. Hörmətli xanım sədr, şəxsən mənim özümə də bu xidmətin rəisi, rəhbərliyi müraciət edib ki, gün ərzində 30 faizdən çox yalançı çağırışlar olur. Bildiyimiz kimi, bu gün qış fəsli olduğuna görə bir sıra infeksion xəstəliklər artıbdır. Gündəlik təxminən 3000 civarında, bəzən daha çox, – təbii ki, Bakı şəhərindən danışıram, – çağırışlar olur, amma bu çağırışların 1000-dən çoxu yalançı çağırışlar olur. Baxmayaraq ki, onların saytında, "Facebook" səhifələrində, digər səhifələrdə əsasnamələri yerləşdirilib, hansı hallarda təcili və yaxud təxirəsalınmaz çağırışlar ola bilər. Amma buna baxmayaraq, deyirlər, heç cürə qarşısını ala bilmirik.

Mən bu məsələ ilə bağlı İnzibati Xətalar Məcəlləsinə baxdım. 564-cü maddədə, – "bilə-bilə yalandan ixtisaslaşmış xidmətləri çağırma", – yanğından mühafizə, polis orqanları, eləcə də təcili tibbi xidmətləri çağırmaqla bağlı cərimə çox aşağıdır. Xahiş edirlər ki, bəlkə bu yolla – cərimənin qaldırılması yolu ilə biz bu məsələni tənzimləyə bilərik. Ölkəyə kifayət qədər təcili tibbi yardım maşınları gətirilməsinə baxmayaraq, bu gün bir sıra hallarda bu xidməti yetərincə göstərmək olmur. Əsl xəstəliklə yanlış xəstəliklər qarışıb. Ona görə mən xahiş edirəm ki, bu məcəllənin müzakirə olunduğu bir məqamda bu xahişi nəzərə alıb gələcəkdə buna baxılsın. Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Məlahət xanım. Erkin Qədirli. Buyurun.

**E.Qədirli.** Çox sağ olun, xanım sədr. Mən də bu İnzibati Xətalar Məcəlləsinə təklif olunan 517-3-cü maddəsi ilə bağlı fikirlərimi bildirmək istəyirəm. Hərçənd, çıxış etmək fikrim yox idi, komitədə mövqeyimi bildirmişdim və əleyhinə səs vermişdim. Lakin burada deyək ki, Qüdrət bəylə eyni nəticəyə gəlsək də, görünür, fərqli arqumentlərdən çıxış edirik. Mən burada Konstitusiya ilə ziddiyyət görmürəm. Yəni uyğunsuzluq var, amma hüquqda mətn uyğunsuzluğu özlüyündə ziddiyyət anlamına gəlmir. Burada mənim gördüyüm problem başqadır. Bizdə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 66-cı maddəsi var, "Sistem xarakterli tipik sui-istifadə amilləri" adlanır. Orada bu amillər sadalanır. Bununla vaxtınızı almaq istəmirəm. O maddənin üçüncü hissəsində özəlliklə iki meyar var ki, mən təklif olunan 517-3-cü maddənin layihəsinin ona uyğun gəlmədiyini düşünürəm. Söhbət orada nədən gedir? Obyektiv məqsədəuyğunluğun olmaması və zərurətdən artıq tənzimləmə. "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 66-cı maddəsinin 3-cü hissəsi bu iki halı yolverilməz sayır. Mən də düşünürəm ki, təklif olunan bu maddə həmin o iki hala uyğun gəlir, yəni yolverilməz sayılmalıdır. Çünki burada həm təqdim olunan arayışda, həm də müzakirələr zamanı "sosial xarakterli fövqəladə mühit rejimi" anlayışının obyektiv məqsədəuyğunluğunu görmədim. Yəni bu, göstərilə bilmədi. Mən özüm də bu haqda çox düşündüm, hətta özümü qane edən bir cavab tapa bilmədim.

Bir də həddindən, zərurətdən artıq tənzimləmə. Yəni fövqəladə rejim anlayışı artıq oturuşub. Hüquq fakültəsinin ortabab tələbəsindən soruşsan, onun nə olduğunu biləcək. Bizim

qanunvericilikdə onun sanksiyaları da var. Sosial xarakterli fövqəladə mühit zərurətdən artıq tənzimləmə sayılmalıdır. Bu iki səbəbdən mən bu maddənin, daha doğrusu, bu layihənin əleyhinə səs verməli olacağam. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Kamal Cəfərov. Buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Qeyd edim ki, həm Erkin müəllimin, həm də Qüdrət müəllimin qaldırdığı məsələlər bu qanun layihəsinin predmeti deyil. Əslində, biz bunları ötən il fevralın 1-də geniş müzakirə eləmişik. Mən o stenoqrama, oradakı o çıxışlara baxmışam. Orada Ziyafət müəllim də bu məsələ ilə bağlı yekun mövqeyi ifadə edibdir. Ona görə hazırda əlavə diskussiya açmağa ehtiyac görmürəm. Sadəcə, Qüdrət müəllimin qaldırdığı digər məsələ minimum əməkhaqqı ilə inzibati cərimənin müqayisələndirilməsi ilə bağlıdır. Bildiyiniz kimi, İnzibati Xətalar Məcəlləsinin 25-ci maddəsində inzibati cəriməni müəyyən edən meyarlar var. Minimum əməkhaqqı isə inzibati  xətanın, yəni məcəllənin obyekti deyil. Çünki cərimə kütləvi ödəniş vasitəsi deyil. Cərimə yalnız, xüsusi əmələ münasibətdə olur. Hər əmələ münasibətdə də fərqli cərimələr müəyyən edilə bilər.

Məlahət xanımın 564-cü maddə ilə bağlı təklifini də qeyd etdim. O məsələlər növbəti mərhələlərdə müzakirə olunan, baxılan zaman biz onu mütləq nəzərə alacağıq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyən yoxdur və mən məsələni səsə qoyuram. Birinci oxunuşda qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 3 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 11-ci məsələyə keçirik. Bu məsələ "Məhkəmələr və hakimlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, yenə də mən Sizə söz verirəm. Buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu qanun layihəsi komitədə geniş müzakirə olunub və komitə bu layihəni dəstəkləyib. Həm də ona görə ki, bu qanun layihəsi Azərbaycanda məhkəmə sistemində həyata keçirilən islahatlarla birbaşa bağlıdır. İslahatların davamına, onun daha da dərinləşməsinə xidmət edir və aşağıdakı məsələlərin həllinə yönəlmişdir. Qısaca, onları nəzərinizə çatdırmaq istəyirəm.

Birincisi, Ədliyyə Nazirliyinin məhkəmələrin işinin təşkili sahəsində həyata keçirdiyi bir çox səlahiyyətlərin bundan sonra Məhkəmə-Hüquq Şurasına həvalə edilməsi nəzərdə tutulur. Bunlar məhkəmə statistikasının aparılması, kargüzarlığın təşkili, məhkəmə aparatlarının strukturunun və ştat cədvəlinin təşkili, məhkəmələrdə əmək intizamına riayət olunması, işin təşkilinin yoxlanılması və digər məsələlərdir. Bundan başqa, hakimlərin əmək və sosial hüquqlarının təmin edilməsi məsələləri də Məhkəmə-Hüquq Şurası tərəfindən təmin ediləcəkdir.

İkincisi, Ədliyyə Nazirliyinin hakimlər barədə intizam

icraatını başlaması səlahiyyəti də artıq bundan sonra nəzərdə tutulmayacaq, o cümlədən, hakimlərin həmin orqana ezam edilməsinin də qanundan çıxarılması nəzərdə tutulur.

Üçüncüsü, Məhkəmə-Hüquq Şurasının bütün instansiya məhkəmələrinin hakimləri barədə intizam icraatı başlaması səlahiyyəti də burada artıq qeyd olunur. Eyni zamanda, qanun layihəsində bir sıra texniki düzəlişlər də var. Onların üzərində dayanmaq istəmirəm. Misal üçün, bilirsiniz ki, Konstitusiya ilə biz yaş məhdudiyyətini götürmüşük, yəni hakimiyyətin bütün qolları üçün artıq yaş məhdudiyyəti mövcud deyil. Amma "Məhkəmələr və hakimlər haqqında" Qanunda hakimliyə namizəd üçün 30 yaş tələb olunurdu. O tələb faktiki olaraq formal xarakter daşıyırdı. Çünki Konstitusiyadan artıq çıxarılıb və təklif olunur ki, bu, layihədə də nəzərə alınsın.

Nəhayət, qanun layihəsinin bu il iyunun 1-dən qüvvəyə minməsi nəzərdə tutulur. Ona görə də, düşünürəm ki, biz bu ərəfədə qanun layihəsini 3 oxunuşda qəbul edib başa çatdıra biləcəyik. Bir daha təşəkkür edirəm. Çünki bu qanun layihəsi, həqiqətən də, ölkədə həyata keçirilən, davam etdirilən məhkəmə-hüquq islahatları üçün indiki mərhələdə xüsusi əhəmiyyət kəsb edir. Çox sağ olun, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyənlər var. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Müzakirə olunan məsələ mühüm hüquqi, sosial və ictimai əhəmiyyətə malikdir. Heydər Əliyevin rəhbərliyi altında iki fərqli formasiyanın – sovet və müstəqil Azərbaycanın Konstitusiyası hazırlanarkən Ulu Öndər dövlətimizi hüquq, qanun və vətəndaşların təməl mənafelərinin qorunması üzərində inşa edirdi və o kurs bizi qələbəyə gətirdi. Bir-biri ilə ideoloji ziddiyyətlərə baxma-

yaraq, Azərbaycanın sovet və müstəqil dövlətinin ədalət mühakiməsi siyasəti vahid bir ideyada: "Qoy, ədalət zəfər çalsın!" şüarında birləşirdi. Ona görə də İlham Əliyevin rəhbərliyi ilə 2017–2019-cu illərdə verilən fərmanlar da məhkəmə sisteminin inkişafına xidmət edir.

Sözügedən sənəddən müzakirə olunan məsələ ilə bağlı iki müddəanı xatırlatmaq istəyirik. 3.2-ci maddəyə görə vahid məhkəmə təcrübəsi formalaşdırılmalı, 3.3-cü maddəyə görə isə hakimlərin müstəqilliyini təmin etmək məqsədi ilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısı alınmalı idi.

İndi biz Məhkəmə-Hüquq Şurasına bir sıra səlahiyyətlər veririk. Ən böyük islahat həmin qurumun əvvəlki dövrdə olduğu kimi, Ədliyyə Nazirliyinə deyil, Ali Məhkəməyə tabe etdirilməsi, vakansiyalara sədrlərin təyini, məhkəmə aparatlarının strukturu və ştat cədvəli, birinci apellyasiya və kassasiya instansiyalarının hakimləri haqqında intizam icraatlarına başlanması və digər səlahiyyətlərdir. Ancaq sual olunur, bütün bunlar yekunda qanunçuluq və ədalət mühakiməsinin keyfiyyətini artıracaqmı, şəffaflığı gücləndirəcəkmi, vətəndaşların hüquqlarının qorunması üçün hakimlərin fəaliyyətinə kənar təsirləri azaldacaqmı? Suala cavab verməzdən əvvəl xüsusi vurğulayaq ki, Vətən müharibəsində qələbədən sonra bütün hakimiyyət orqanlarından, o cümlədən məhkəmə sistemindən gözləntilər artıb. 30 illik savaşın qalibi olan vətəndaşlarımızın tələbləri və istəkləri güclənib. Digər tərəfdən, biz azad torpaqlara təkcə mülki insanları deyil, həm də dövlət hakimiyyət orqanlarını qaytarırıq. Böyük Qayıdışla Kəlbəcərdən Zəngilanadək, hər yerdə dövlət hakimiyyət institutları öz fəaliyyətlərini qurur və köçkünlüklərinə son qoyurlar.

Belə tarixi dönüş anında xalqımızın tələblərini qarşı-

lamaq üçün məhkəmə orqanlarının müəyyən müstəqilliyi önə çıxır. Təəssüf ki, hakimlərin müstəqilliyindən danışılanda onların yalnız siyasi və inzibati orqanların, ictimai institutların, media və xarici təşkilatların müdaxiləsindən azad olunmasından bəhs edilir. Halbuki, bizim məhkəmələrdə birinci instansiya məhkəmə hakimləri sədrlərdən, onlar da öz növbəsində yuxarı məhkəmələrdən hər gün daha çox asılı edilir və beləliklə, gücləndirilən mərkəzləşmə üçpilləli mühakimə təsisatını faktiki birpilləli məhkəmə sisteminə çevirib. Elə bilin, hərbi kazarma qaydalarında olduğu kimi, hər bir hakim işin sonunda "məsləhətləşməyə" çıxır, məruzələr edir və yekunda ona verilən göstərişi qərara çevirir. Məgər məhkəmə sistemində iyerarxiya ləğv olunub və bütün mülki, inzibati, cinayət işləri üzrə qurumlar vahid hərbi sistemə keçib? Onda kim zəmanət verir ki, bir Ali Məhkəmənin məhdud tərkibli heyətinin diktəsi ilə 540-dan artıq hakimin iradəsini, hüquqi peşəkarlığını və apardıqları araşdırmaları əvəz etmək olar. Buna, təbii ki, zəmanət vermək mümkün deyil. Ona görə də məhkəmələrin ictimai nüfuzu yüksək deyil və bu, ədalət mühakiməsinə ictimai inamı göstərən mühüm indikatordur.

Mən bir sıra fikirlərimi geniş yazmışam, fasiləyə az qalıb deyə onların üzərindən keçirəm. Statistika haqqında bir cümlə ilə deyim ki, elə Məhkəmə-Hüquq Şurasının özünün rəsmi saytında həmin hissə tamamilə boşdur. Bir siyasətin planlaşması məlumat bazaları olmadan qeyri-mümkündür. Sadəcə, qeyri-mümkündür və əgər biz ölkə miqyasında bütün məhkəmə baxışlarına dair mükəmməl data bazaları ala bilmiriksə, siyasət planlaşması normal getməyəcək. Məsələn, yalnız birini söyləyim. Məhkəmə təcrübəsində inzibati məhkəmələrdə bir Ali Məhkəmə

hakiminin verdiyi rəsmi açıqlamadır. Deyir ki, 85 faiz qərarlar vətəndaşların xeyrinə həll olunur. Buradan çıxan nəticə: məhkəmələrin yüklənməsi. Hər bir hakimin aylıq iş yükü ona görə artmış olur ki, vətəndaşların əleyhinə o inzibati qərarları çıxaran müvafiq qurumlar bu işlərin sanki məhkəməyə daşınmasına təsir edirlər. Əgər biz başqa sistemi daha normal düzəltmiş olsaq, məhkəmə sisteminin də bu qədər yükü olmaz.

Ona görə mən təklif edirəm ki, ən ali səviyyədə məhkəmə-hüquq sisteminin vəziyyətinə dair müşavirələr keçirilsin. Obyektiv və mötəbər rəylərin dinlənməsi üçün bunlar çox vacibdir. Əlbəttə, mən bu sənədə səs verəcəyəm. Amma mənim dediyim məsələ, bütövlükdə, məhkəmə sisteminin fəaliyyəti ilə bağlıdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Təqdim edilən qanun layihəsi məhkəmə-hüquq sistemində aparılan islahatların davamıdır və əminəm ki, qanun layihəsinin qəbulu məhkəmə-hüquq sisteminin təkmilləşməsinə öz əhəmiyyətli töhfəsini verəcəkdir. Məhkəmə sisteminin müstəqilliyinin daha səmərəli şəkildə təmin olunmasında və məhkəmənin işinin təşkilində Ədliyyə Nazirliyinin bir sıra səlahiyyətlərinin Məhkəmə-Hüquq Şurasına verilməsi olduqca mütərəqqidir və bu, alqışlanmalıdır.

Məhkəmə-hüquq sisteminin təkmilləşməsi ilə bağlı islahatlar içərisində xüsusi olaraq 2018-ci ildə ölkə Prezidentinin ortaya qoymuş olduğu təşəbbüslər əhəmiyyətli yer tutur və bununla da ilkin və ciddi addımlar atıldı. Sonradan pandemiya, Vətən müharibəsi, Vətən müharibəsindən sonra qarşımızda duran çox ciddi hərbi-siyasi vəzifələr digər sahələrdə olduğu kimi bu məsələdə də

müəyyən dərəcə fasilə yaratdı və bu da təbiidir. İndi artıq biz yeni dönəmdəyik, yeni çağırışlar var. Azərbaycan qalib dövlət kimi önə çıxıbdır. Bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sisteminin təkmilləşməsində, xüsusi olaraq məhkəmələrin müstəqilliyinin təmin olunmasında ciddi addımlar atılmaqdadır və bu qanun layihəsi də bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Mən deməzdim ki, hörmətli həmkarım Zahid Orucun dediyi kimi, bu gün məhkəmələr tamamilə ciddi problemlərin içərisindədir. Biz 30 illik bir tarixə malikik. Mən 2000-ci ildən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü olmuşam, məhkəmə-hüquq sistemində gedən bütün proseslərin şahidi olmuşam, bu proseslərin birbaşa içərisində olmuşam. Eyni zamanda, etiraf edim ki, ölkə Prezidenti tərəfindən hər zaman məhkəmə-hüquq sisteminin təkmilləşməsi, məhkəmələrin müstəqilliyinin təmin olunması ilə bağlı bütün addımlar inqilab deyil, tədricən təkamül yolu ilə, sistemli şəkildə atılıbdır. Azərbaycanda digər dövlət hakimiyyətinin qolları ilə bərabər Konstitusiya ilə müəyyən olunmuş məhkəmə hakimiyyəti var. Məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması üçün birinci növbədə cəmiyyət ona hazır olmalıdır. İkinci növbədə ora seçilən hakim ona hazır olmalıdır və burada inzibatçılıq zərrə qədər rol oynaya bilmir. Artıq zaman keçib, bu baxımdan cəmiyyət kifayət qədər inkişaf edib. Mütərəqqi bir səviyyəyə qalxmışıq və etiraf etmək lazımdır ki, indiki məhkəmə sistemi ilə əsrin əvvəllərindəki məhkəmə sistemi arasında çox ciddi fərqlər var. Lakin problemlər də var. İndi o problemləri aradan qaldırmaq üçün bir tərəfdən qanunvericilik səviyyəsində addımlar atılır, layihələr təqdim olunur, təbii ki, biz də o layihələrə səs veririk, qanunvericilik bazasını yaradırıq. İkinci

tərəfdən isə, bu qanunvericilik bazasına uyğun olaraq islahatların aparılmasında cənab Prezident çox mühüm bir addım atdı. Ölkəmizdə islahatçı imici qazanan, atmış olduğu addımlarda hər zaman uğur əldə edən İnam Kərimov Ali Məhkəməyə sədr gətirildi. Onun gəlişi ilə mən tamamilə əminəm ki, məhkəmə sistemində Zahid müəllimi də, bizi də narahat edən bütün problemlərin aradan qaldırılması çox qısa zaman kəsiyində öz həllini tapacaqdır.

Mən qanun layihəsinə səs verəcəyəm. Dəyərli millət vəkillərini də səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, düşünürəm, etiraz etməzsinizsə, biz davam edək. 2 nəfər yazılıb. Yəni fasilə vaxtıdır, ancaq biz davam edəcəyik. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli deputatlar. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər vacib dəyişikliklərdir. Zaman-zaman məhkəmə sistemində islahatlar aparılır. Ancaq bu islahatların geniş təqdimatı olmalıdır. Yaşadığımız cəmiyyətin adı informasiya cəmiyyətidir.

Dəyişikliklərlə tanışlıqda Məhkəmə-Hüquq Şurasının saytına baxdım. İnformasiya və hüquq maarifçiliyi baxımından məni qane etmədi. Cəmi 3 iclas barədə qısa məlumat verilib. Bu, qapalı təsisat deyil axı. Məsələn, 2023-cü il dekabrın 21-də Məhkəmə-Hüquq Şurasının iclasında hakimlərin fəaliyyətinin qiymətləndirilməsi məsələlərinə və intizam icraatı üzrə işlərə baxılıb. Qəbul edilmiş qərarlar haqqında heç bir məlumat yoxdur.

2023-cü il sentyabrın 28-də bu qurumun keçirdiyi iclas yeni nəsil hakim korpusunun çevik komplektləşdirilməsi məqsədi ilə hakimliyə namizədlərin seçim proseslərinə

həsr olunub. Yenə də bir neçə cümləlik informasiya.

Bunlar çox vacib məsələlərdir. Lakin informasiya qıtlığı olduğundan, deputatlar da məlumatsız qalırlar. Məhkəmə-Hüquq Şurasının rəhbərliyi və tərkibi dəyişib. Buna görə də insanların dəyişikliklərlə tanışlığı barədə maraqları da, gözləntiləri də çoxalıb. Ona görə də informasiya resursları zəngin olmalıdır.

Yeni nəsil hakim korpusunun formalaşmasından söhbət düşmüşkən, mən Məhkəmə-Hüquq Şurasının bir hakiminin birinci instansiya məhkəməsində 20 il sədr işləməsi məsələsini müzakirə etməyi xahiş edirəm. Kənar effektlər təhlil olunmalıdır. Bu məsələ çoxdan yetişib. İndi təsəvvür edin, Bakının bir rayonunda 10 il məhkəmə sədri işləmiş hakim vaxtı bitəndə başqa rayona məhkəmə sədri təyin edilir. 10 il də orada işləməlidir. Belə hallar rayonun digər qurumları ilə sabit münasibətlər yaradır, neqativ halları çoxaldır. Belə olan halda gənclərin prespektivindən necə danışmaq olar? Birinci instansiya məhkəməsinin sədrinə 5 il səlahiyyət müddəti verilməlidir. Əgər rotasiya olacaqsa, bu müddət də maksimum 5 il olsun.

Mediasiya Şurasının cəmiyyətdə yer tutması üçün Məhkəmə-Hüquq Şurası əlindən gələni əsirgəməməlidir. Onda beynəlxalq səviyyədə də hüquq sisteminizə tənqidlər səngiyə bilər. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən çıxış etməyəcəkdim. Çünki komitədə çıxış etmişəm.

Onu deyim ki, hesab edirəm, hazırkı qanun layihəsi əhəmiyyətli dərəcədə icra hakimiyyəti orqanlarından, digər orqanlardan məhkəmələrin müstəqilliyini təmin edən böyük addımdır. Bunu alqışlayıram. Yəni komitədə geniş

danışmışdım. Sadəcə, Zahid müəllim hakimlərin məruzə etməsi ilə bağlı bir məsələyə toxundu. Mənə elə gəlir, hakimlik bəlkə də yeganə vəzifədir ki, qərarların qəbulu qanunların aliliyi ilə yanaşı, həm də onun vicdan və ədalətinə buraxılır. O cümlədən hakim rütbəsi yuxarı olan instansiya və yaxud məhkəmə sədrləri ilə bağlı, yəni onların təkcə məhkəmədə, araşdırmada deyil, hakimlik funksiyalarını yerinə yetirmədikdə, deyək, rəislik funksiyalarında da vicdan lazımdır.

Üzr istəyirəm, biz işləyən zaman qərar qəbul etmişdik. Heç bir hakim məruzə etməyəcək. Məsələn, mənim yanıma gələndə məruzə etmək qəti qadağan idi, bir insan məruzə edə bilməzdi. Qanuna uyğun, ədalətlə, vicdanla məsələni həll elə, ancaq harada qanunu azacıq pozsan, başınla cavab verirsən. Hətta o vaxt ölüm hökmü var idi. Demişdim, mənə inanın, əgər kim qanunu pozacaqsa, rüşvət alacaqsa, "Quran"a and içirəm, özüm baxıb onun haqqında ölüm hökmü çıxaracağam. Yəni bu, vicdan məsələsidir.

Mən məhkəmənin rəhbər heyətlərini dəvət edirəm ki, təkcə məhkəmə iclaslarının araşdırmaları deyil, eyni zamanda, hakimlərin müstəqilliyini müəyyən edən rəislik funksiyalarını yerinə yetirən zaman da vicdanı ali tutsunlar. Buna ümid edirəm. Yaşlı bir adam, keçmiş bir hakim kimi. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən təşəkkür edirəm, bu qanunun islahatçı ruhunu qiymətləndirdiniz və əminəm ki, ona səs verəcəksiniz. Amma, eyni zamanda, sizin o fikirlərinizlə razılaşıram ki, həyata keçirilən islahatlar, o cümlədən məhkəmə-hüquq islahatları ilə bağlı daim cəmiyyətə məlumat verilməlidir. Bu qeydiniz mütləq Məhrəmə-Hüquq

Şurasının diqqətinə çatdırılacaq. O cümlədən şuradakı nümayəndəmiz Nizami müəllim bu gün üzrlü səbəbdən iclasda iştirak etmir, amma bilirəm ki, mütləq o da bunu nəzarətdə saxlayacaq.

Eyni zamanda, məlumatlandırmaq istəyirəm ki, – hörmətli xanım sədr də tövsiyə etmişdi, biz, təəssüf, keçən sessiyada bunu edə bilmədik, amma əminəm ki, bu sessiya ərzində bunu edəcəyik, – məhkəmə sistemində həyata keçirilən islahatlarla bağlı bir ictimai müzakirə keçirəcəyik. Bunun həm də əsası var, çünki biz keçən sessiyada Məhkəmə-Hüquq Şurası ilə bağlı qanunda dəyişiklik etdik və o, yenidən formalaşdı. Mülki Prosessual Məcəlləyə çox vacib dəyişikliklər etdik və nəhayət, bu gün qəbul etdiyimiz dəyişiklik. Ona görə haqlısınız. Mən əminəm, yaz sessiyasında imkanımız olacaq ki, bir dinləmə keçirək və sizlər də bu barədə məlumatlanasınız. Çox sağ olun, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun. Mən, sadəcə, yenə də xatırladım ki, bununla bağlı çıxış edən, maraqlı olan, sualları olan deputatları da dəvət edəsiniz.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bununla da iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasın tarixi haqqında sizə əlavə məlumat veriləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**Cəbi Quliyev.** Hər birinizə məlumdur ki, ölkə başçısı 2 gün bundan öncə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması ilə bağlı Sərəncam imzalayıb. Ulu Öndərin "Azərbaycanın incisi" adlandırdığı, öz tarixi-mədəni abidələri ilə göz oxşayan, adət-ənənələrin minillərcə qorunub saxlandığı, milli mətbəximizə yüzlərcə təam qatan, daim regionun elm və mədəniyyət mərkəzlərindən biri sayılan Ordubad şəhərinin bu sərəncamla yeni inkişaf dövrü başlamış olacaq. Çox sevindirici haldır ki, Gəmiqaya, Xaraba Gilan, Ordubad Cümə Məscidi, Qeysəriyyə, buzxana, onlarca tarixi hamam, karvansaray, tarixi körpülər bu qoruq vasitəsi ilə ciddi nəzarətə alınmaqla yanaşı, həm də dünyaya tanıdılmış olacaq. Əminliklə deyə bilərik ki, bu sərəncam həm də Ordubadın çox geniş və şaxəli turizm potensialını bir daha sübut etməklə əraziyə yerli və xarici turist axınına səbəb olacaq. Bu da əhalinin məşğulluğunun və gəlirlərinin artması üçün böyük stimul olacaq.

Naxçıvan Muxtar Respublikasının 100-cü yaşını qeyd etdiyimiz bu günlərdə bu sərəncam bütün muxtar respublika ictimaiyyətinin böyük sevincinə səbəb oldu. Naxçıvan ictimaiyyəti, bütün ordubadlılar adından, öz adımdan ölkə başçısına tarixi-mədəni irsimizə göstərmiş olduğu xüsusi diqqət və qayğıya, Ordubadla bağlı imzaladığı sərəncama görə dərin və sonsuz minnətdarlığımı bildirirəm.

**Əliabbas Salahzadə.** Bu gün müzakirəmizə təqdim olunan 2023-cü il üzrə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı məlumat kifayət

qədər geniş hazırlanmışdır, sturuktur etibarı ilə optimaldır. Vilayət müəllimin də təqdimatı əhatəlidir, görülmüş işlər barədə aydın təsəvvürlərin formalaşmasına imkan verir. Vilayət müəllimə təşəkkürümü bildirir, fəaliyyətində uğurlar arzulayıram.

Bu il ölkəmizdə növbəti bələdiyyə seçkiləri keçirləcək. Respublikamızda ilk bələdiyyə seçkiləri 25 il öncə keçirilmişdir. Yarandığı ilk dövrlərdə onların fəaliyyətinin qurulmasında bir çox problemlər olsa da, keçən dövr ərzində qanunvericilik bazasının formalaşdırılması və təkmilləşdirilməsi sahəsində xeyli iş görülmüşdür. Demək olar ki, hər il parlamentdə tərəfimizdən birbaşa bələdiyyələrə aid, eyni zamanda, əlaqəli qanunlarda əlavə və düzəlişlər edilir. Məlumatdan da göründüyü kimi, bu sahədə də ötən dövr ərzində xeyli işlər görülmüşdür.

Qanunvericilikdə aparılmış təkmilləşdirilmələr sırasında ən önəmli olanı hesab edirəm ki, bələdiyyə torpaqlarının hərrac və ya müsabiqə keçirilmədən birbaşa bələdiyyə qərarı ilə ayrılmasını nəzərdə tutan istisna halların dairəsinin genişləndirilməsidir. Bələdiyyə–vətəndaş münasibətləri baxımından daha çox problem müşahidə olunan məqamlardan ən başlıcası bələdiyyə mülkiyyətinin idarə edilməsi ilə bağlıdır. Burada əsas mübahisə predmeti bələdiyyə torpaqlarıdır. Bu baxımdan “Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanı ilə bələdiyyələrin üzərinə müəyyən vəzifələrin qoyulması mübahisələrin həllinə optimal yanaşma baxımından əhəmiyyətlidir. Belə ki, fərmana əsasən bələdiyyə mülkiyyətində olan torpaq sahəsində yerləşən, istismara hazırlığı barədə müsbət rəy verilmiş qeyri-yaşayış binası-

nın yerləşdiyi torpaq sahəsi qanunvericiliklə müəyyənləşdirilmiş qaydada müvafiq bələdiyyə tərəfindən onun sahibinin mülkiyyətinə və ya icarəsinə ayrıldıqdan sonra istismarına icazə verilməsi uzun illər ərzində davam edən məhkəmə çəkişmələrinə son qoyulmasına, qeyri-müəyyənliklərin aradan qaldırılmasına imkan verəcəkdir.

Məlumatda qeyd edilir ki, qüvvədə olan qanunvericiliyin tələbləri və mövcud normaların tətbiqi ilə bağlı nazirlik tərəfindən bələdiyyələrlə maarifləndirici tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərin sayının və keyfiyyətinin hər il artırılması təqdirəlayiqdir.

Bu gün "yaşıl" və bərpa olunan enerjidən istifadə məsələləri bütün dünyanın diqqətində olan mühüm məsələlərdəndir və hər bir ölkə bu sahədə daha uğurlu fəaliyyətin qurulması üçün müxtəlif, çoxsaylı proqram, konsepsiyalar hazırlayırlar. Bu baxımdan "Torpaq sahəsinin bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı məqsədləri üçün əldə edilməsinin xüsusiyyətləri" mövzusunda tövsiyələrin hazırlanaraq bütün bələdiyyələrə göndərilməsi və onların da gələcəkdə bu sahədə iştirakçılığının hədəflənməsi müsbət dəyərləndirilməlidir.

Bu gün bələdiyyələrin fəaliyyətinin başlıca tələblərindən biri şəffaflığın təmini, hesabatlılıqdır. Məlumatda bu istiqamətdə görülən işlər barədə geniş söhbət açılır. Onlardan ən önəmlisi xidmətlərin elektron portala transformasiyası hesab edilə bilər.

İl ərzində inzibati nəzarət qaydasında baxılması üçün daxil olmuş 100.430 bələdiyyə aktının hüquqi ekspertizadan keçirilməsi zamanı aktların 96.363-nün, yəni 96 faizinin qanunvericiliyə uyğun olmasının müəyyənləşdirilməsi, hesab edirəm ki, həm maarifləndirici işin səmərəli təşkilinin, həm də görülmüş inzibati tədbirlərin düzgün hədəf-

lənməsinin göstəricisidir.

Ötən il dövlət büdcəsindən bələdiyyələrə dotasiya və subvensiya ayrılmaqla göstərilən maliyyə dəstəyinin məbləği artırılaraq ilk dəfə 7 milyon manatı ötmüşdür. Bu büdcə ilində dövlət büdcəsində bu məqsəd üçün 8 milyon manatdan çox vəsaitin nəzərdə tutulması bizə ümid verir ki, gələcək illərdə də bu artım dinamik xarakterli olacaqdır.

Qeyd edilənlərlə yanaşı, hesab edirəm ki, bələdiyyələr təkcə subsidiyalar hesabına ayaqda durmamalı, özləri mülkiyyətində olan əmlakın düzgün idarə edilməsi yolu ilə əlavə vəsait əldə etməli, vətəndaşların işlə təmini məsələlərində dövlətə dəstək olmalıdırlar.

Konstitusiyamızda təsbit olunan müddəalara görə, Milli Məclis bu və ya digər səbəbdən istənilən bələdiyyə orqanı nümayəndəsini qanunvericiləri düşündürən məsələlərə görə dəvət edə bilər. Təklif edərdim ki, məlumatda problemli bələdiyyələr kimi adı çəkilən və yaxud ictimaiyyət arasında fəaliyyətini daha səmərəsiz quran bələdiyyə kimi tanınan qurumların nümayəndələrini Milli Məclisə dəvət edək, onlara öz suallarımızı ünvanlayaq.

**Kamran Bayramov.** Təqdim olunmuş məruzənin builki müzakirəsi olduqca vacibdir, çünki bu il bələdiyyələr 25 yaşını qeyd edəcək, sayca 6-cı seçkilərini keçirəcəkdir.

Eyni zamanda, bu məruzə bələdiyyələrin 5 illik fəaliyyətinə qiymət verilməsi kimi dəyərləndirilə bilər. Ötən beş il pandemiya, Vətən müharibəsi kimi hadisələrlə zəngin olsa da, bələdiyyələr kifayət qədər çox işlər görüblər, müəyyən inkişaf yolu keçiblər, hətta bəzi sahələr üzrə perspektivli nailiyyətlər əldə ediblər.

Hələ 1999-cu ildə yaradılan bələdiyyələr dövlətin iş yükünü azaltmalı, şəhər, qəsəbə və kəndlərin sosial-iqtisadi inkişafında vacib rol oynamalı, yerli qərarların

qəbulu prosesində vətəndaşların iştirakını təmin etməli idilər. Bu 25 il ərzində bu məqsədlərə nail ola bildilərmi? Bildilər. Amma qismən.

Bu gün isə bələdiyyələrin gələcək inkişaf perspektivləri sual altındadır. Çünki cəmiyyətdə real nüfuz və etimad qazanmaq üçün onlar kifayət qədər maliyyə imkanlarına malik deyillər, hələ də maliyyə baxımından müstəqilləşmələrinə mane olan problemlərlə üzləşirlər. Həqiqət ondan ibarətdir ki, maliyyə dayanıqlığı olmadan bələdiyyələrin inkişafı mümkünsüzdür.

Unutmayaq ki, bu il baş tutacaq bələdiyyə seçkiləri tarixi əhəmiyyət daşıyacaq. Çünki ilk dəfə olaraq işğaldan azad edilmiş ərazilərdə də seçkilər keçiriləcək, orada yeni bələdiyyələr yaradılacaq. Həmin ərazilərdə, ümumiyyətlə, ölkəmizdə özünü tam təmin etmək, yerli əhəmiyyətli məsələləri sərbəst və müstəqil şəkildə həll etmək iqtidarında olan təkmil və güclü bələdiyyələr fəaliyyət göstərməlidir.

Ona görə də, bələdiyyə sistemində hökmən əsaslı və köklü islahatlar aparılmalıdır, aşağıdakı zəruri tədbirlər görülməlidir:

1. Bələdiyyələrin sayı birləşmə yolu ilə ən azı iki dəfə azaldılmalıdır. Onların böyük əksəriyyəti (87 faiz) zəif, xırda kənd bələdiyyələridir. Bununla yanaşı, elə bələdiyyələr var ki, onların sosial müdafiə ayırmaları üzrə böyük borcları var. Bu səbəbdən bank hesablarına həbs qoyulub, buna görə də fəaliyyətləri məhdudlaşıb. Belə bələdiyyələrin sayı da az deyil. Birləşmə prosesi bu problemlərdən qurtulmaq və normal fəaliyyət göstərmək imkanı yaradardı.

2. Bələdiyyələrin maliyyə bazası gücləndirilməlidir. Onlara yeni səlahiyyətlərin verilməsinə heç ehtiyac yoxdur, sadəcə, mövcud səlahiyyətlərin icrasında olan çətin-

liklər aradan qaldırılmalıdır. İlk növbədə, bələdiyyə xəritələrinin və mülkiyyət sənədlərinin verilməsi və özəl mülkiyyətdə olan ev və binaların tam sənədləşdirilməsi prosesləri başa çatdırılmalıdır. Çünki bu məsələlər bələdiyyələrə yerli vergi və ödənişlərin yığılması işində konkret problemlər yaradır. Bu məsələlər öz həllini taparsa, yerli vergi və ödənişlər üzrə vəsait həcmində kəskin sıçrayış olacaqdır.

3. Qanunvericilikdə bələdiyyə sədrlərinin və qulluqçularının qanun pozuntularına görə məsuliyyəti sərtləşdirilməlidir, yerli büdcələrin təyinatı üzrə istifadəsinə maliyyə nəzarəti gücləndirilməlidir.

4. Ölkəmizdə bələdiyyələrin düzgün istiqamətdə inkişafının təmin edilməsi, bələdiyyələrə bir mərkəzdən zəruri qanunvericilik, institusional, təşkilati, metodoloji və maddi dəstəyin göstərilməsi məqsədi ilə xüsusi dövlət qurumunun və ya publik hüquqi şəxsin yaradılması da məqsədəuyğun olardı.

Məhz bu tədbirlərin və islahatların həyata keçirilməsindən sonra bələdiyyələrin nüfuzu və əhalinin onlara inamı artar, bir idarəetmə qurumu kimi ölkəmizin müasir inkişafı ilə ayaqlaşar, vətəndaşlara layiqli xidmət göstərməyi bacarar.

**Malik Həsənov.** Bu gün müzakirəmizə təqdim olunan bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2023-cü il fəaliyyəti ilə bağlı illik məruzə peşəkarcasına hazırlanmışdır və bu, nəzarəti həyata keçirən qurumun hesabat dövrü ərzindəki fəaliyyətini izləməyə imkan verir, sturuktur etibarı ilə optimaldır.

Bu ilin dekabr ayında ölkəmizdə növbəti bələdiyyə seçkilərinin keçirləcəyini nəzərə alsaq, gözlənilləndir ki, bələdiyyələrin işinin təşkilinə və təkmilləşdirilməsinə hə-

dəflənmiş bir sıra əlavə və dəyişikliklər ediləcəkdir. Eyni zamanda, artıq işğaldan azad olunmuş torpaqlarımızda da bələdiyyələr formalaşdırılacaq, məskunlaşma prosesinə başlanılmış bələdiyyələrdə də seçkilər keçiriləcəkdir.

Bu il həm də ölkəmizdə bələdiyyələrin yaradılmasının 25 illiyini qeyd edəcəyik və hesab edirəm ki, bu, kifayət qədər yetərli bir zamandır.

Ötən il parlamentdə bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində xeyli iş görülmüşdür. Onlar içərisində ən mühümü dövlət başçısının sənədsiz evlərin rəsmiləşdirilməsi barədə tapşırıqlarından, eləcə də bərpa olunan enerji mənbələrindən istifadə sahəsində böyük layihələrin həyata keçirilməsi ilə bağlı fəaliyyətdən çıxış edərək bələdiyyə torpaqlarının hərrac və ya müsabiqə keçirilmədən birbaşa bələdiyyə qərarı ilə ayrılmasını nəzərdə tutan istisna halların dairəsinin genişləndirilməsidir.

Bələdiyyə–vətəndaş münasibətlərinin yaxşılaşdırılması və yaxınlaşdırılması vacib amildir. Bu gün ən böyük problemlərdən biri vətəndaşların bələdiyyə aktlarına əlyetənliyinin məhdud çərçivədə olmasıdır. Bu mənada məlumatda da əksini tapdığı kimi, nazirlik tərəfindən hazırlanmış "Bələdiyyələrlə iş portalı"nın təqdim edilməsi təqdirəlayiq olmaqla elektron hökumətin fəaliyyət sferasının genişlənməsinə verilən töhfə hesab oluna bilər. Məlumatda əks etdirildiyi kimi, artıq hər bir bələdiyyənin BAMS-da öz inzibati ərazisində üzərində fiziki şəxslərin mülkiyyət hüququ, dövlət qeydiyyatına alınmış daşınmaz əmlak, o cümlədən torpaq sahələrinin, yerli əmlak və torpaq vergisi obyektlərinin sayı, ümumi sahəsi barədə məlumatları görmək, həmçinin müvafiq ödəniş etməklə onlayn qaydada real vaxt rejimində həmin obyektlər barədə məlumat-

ları əldə edərək vergi uçotuna götürmək imkanı yaradılması olduqca mütərəqqi addımdır.

Ötən il dövlət büdcəsindən bələdiyyələrə dotasiya və subvensiya ayrılmaqla göstərilən maliyyə dəstəyinin məbləği artırılaraq ilk dəfə 7 milyon manatı ötmüşdür. Bu il dövlət büdcəsindən bu məqsəd üçün 8 milyon manatdan çox vəsaitin nəzərdə tutulması və ayırmalarda dinamik artımın müşahidə edilməsi dövlətimizin artan gücünün göstəricisi olmaqla bələdiyyələrin fəaliyyətinin genişləndirilməsinə imkan verəcəkdir.

Bələdiyyələrin ən böyük problemi bələdiyyə əmlakı, xüsusən torpaqlarla bağlı olmuşdur. Deyərdim ki, bu problem bələdiyyələr yaranan dövrdən bu günə kimi davam edir. Məlumatda da göstərildiyi kimi, hazırda 400 hektara yaxın mübahisəli bələdiyyə torpaqları üzrə məhkəmə prosesləri davam etdirilir, əvvəllər zəbt edilmiş torpaq sahələri bələdiyyələrin mülkiyyətinə qaytarılmışdır. Hesab edirəm ki, gələcəkdə işğaldan azad olunan ərazilərdə bələdiyyələr yaradılarkən və onların əmlakı müəyyənləşdirilərkən bu problem ilə rastlaşmamaq üçün daim bu mənfi təcrübə xatırlanmalı və ya səmərəli mexanizmlər düşünülməlidir.

Qeyd edilənləri nəzərə alaraq, hesab edirəm ki, məlumat və məruzə kifayət qədər geniş hazırlanmışdır.

# MÜNDƏRİCAT


23 fevral 2024-cü il.............................................................. 3

Edilməmiş çıxışların mətnləri............................................. 80

Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

On beşinci sessiya
Yaz

62-ci cild

23 fevral 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  5,5. Sifariş 52. Tiraj 150.